Xalqın qəzeti!

# Xalq qəzeti

№ 58 (30752) 16 mart 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Sabitlik və islahatlar davamlı inkişafı sürətləndirib

*Ötən il ÜDM 4,1 faiz artaraq 126,3 milyard manata yüksəlib*



**“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bildirilir ki, respublikamız dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib.**

Azərbaycan ötən illər ərzində beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verib, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilib. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaradıb. Bu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin regionda proseslərin inkişaf vektorunu müəyyənləşdirən və dünya iqtisadiyyatında söz sahibi olan “qlobal oyunçu” statusunu gerçəkləşdirib.

**(ardı 7-ci səhifədə)**

## XII Qlobal Bakı Forumu öz işini yekunlaşdırıb




Səhifə ⇨ 8

## Geosiyasi maraqlar və tərəfkeşlik amili

**Avropa İttifaqı (Aİ) rəsmi sənədlərində və beynəlxalq ritorikasında insan hüquqları, demokratiya, qanunun aliliyi və azadlıq kimi fundamental dəyərləri əsas prinsiplər kimi qəbul edir. Aİ-nin əsas sənədlərindən biri olan Lissabon müqaviləsinin 2-ci maddəsində açıq şəkildə vurğulanır ki, İttifaq “insan ləyaqətinə hörmət, azadlıq, demokratiya, bərabərlik, qanunun aliliyi” prinsipləri üzərində qurulub. Bu dəyərlər normativ yanaşmaya görə Aİ-nin daxili və xarici siyasətinin təməlini təşkil edir.**



Lakin Aİ-nin praktik siyasətini təhlil etdikdə, bu prinsiplərin bəzən selektiv şəkildə tətbiq edildiyi açıq görünür. Bir tərəfdən, Avropa İttifaqı üçüncü ölkələrlə münasibətlərində demokratik idarəçiliyi, söz azadlığını və hüquq sisteminin müstəqilliyini əsas şərt kimi irəli sürür. Aİ-nin qonşuluq siyasətində və üzvlük perspektivi verdiyi dövlətlərə qarşı tətbiq etdiyi Kopenhagen meyarları da məhz bu dəyərlərə söykənir. Digər tərəfdən, Aİ öz üzvləri arasında bu prinsiplərə münasibətdə ikili standartlara yol verir və geosiyasi maraqlarını üstün tutur.

**(ardı 3-cü səhifədə)**

## Milli maraqlar kənar təhdidlərə sipərdir

*Prezident İlham Əliyevin “Euronews”a müsahibəsi Azərbaycanın bədxahlarına mesajdır*

**Bu postulatı Prezident İlham Əliyev dəfələrlə vurğulayıb: Azərbaycanın xarici siyasəti onun daxili siyasətinin məntiqi davamıdır. Beynəlxalq arenada sabit mövqeyə malik, qlobal əməkdaşlıq platformalarında aktual ideya və çağırışların təşəbbüsçüsü kimi tanınan Azərbaycanın qazandığı nüfuzun kökündə məhz düşünülmüş və məqsədyönlü siyasət dayanır.**




**(ardı 4-cü səhifədə)**

## Azərbaycanın 2 şərti və Ermənistana dövlət legitimliyi təminatı

*Haylar reallığı görməyə məhkumdurlar, əks halda...*



**Prezident İlham Əliyev XII Qlobal Bakı Forumundakı çıxışı zamanı Ermənistana etimadın olmadığını vurğuladı. Bu tezis dövlətimizin başçısının nitqinin məğzini təşkil edən başlıca fikrə çevrildi. Nəzərə alaq ki,  Prezidentimizin fikri Bakı ilə İrəvan arasında sülh müqaviləsi mətninin razılaşdırılması ilə bağlı danışıqların yekunlaşdırılması və dünyanın bir çox ölkələrindən Azərbaycana və Ermənistana təbriklərin çatdırılması fonunda səsləndi.**

**(ardı 3-cü səhifədə)**

## Belçikalı deputat Menendesin aqibətindən nəticə çıxarmalıdır



**Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində 30 ildən çox mövcud olmuş qondarma separatçı rejimə başçılıq etmiş şəxslərin Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə prosesi xaricdəki ermənilərin pulu hesabına onlara lobbiçilik edənlər üçün göydəndüşmə fürsət olub.**

Onlardan biri də Belçika Federal Parlamentinin üzvü Mişel de Maeqd ad-soyadlı şəxsdir. O, martın 13-də Nümayəndələr Palatasında keçirilən dinləmələrdə dünyanın digər yerlərindəki ermənipərəst konqresmen, senator və deputatlar kimi saxlanılan şəxsləri “erməni hərbi əsirlər”, ədalət mühakiməsini “saxta məhkəmə” adlandırıb. İddia edib ki, onların həyatları üçün təhlükə var və o da, guya, bundan narahatdır.

**(ardı 5-ci səhifədə)**

## Azərbaycan cazının dünya fatehi

Səhifə ⇨ 10



## “Şirin Xəzər” layihəsi gerçəkləşir



Səhifə ⇨ 7



## Bahar nə xoş gəlir...

Səhifə ⇨ 11

# Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28) ilə təsdiq edilmiş “Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bənddən “habelə” sözü çıxarılsın və həmin bənddə “sahəsində” sözü “, eləcə də Şuşa şəhəri və Şuşa rayonu ərazisində əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların və fərdi yaşayış evlərinin idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində” sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 2.1.1-1 – 2.1.1-5-ci və 3.1.1-1 – 3.1.1-15-ci yarımbəndlər əlavə edilsin:

“2.1.1-1. Şuşa rayonu (bundan sonra – rayon ərazisində) və müvafiq ərazidə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.1-2. tikintisini təşkil etdiyi çoxmənzilli binaları, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək, müvəqqəti idarə etmək;

2.1.1-3. rayon ərazisində və müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.1-4. rayon ərazisində və müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.1-5. müvafiq ərazidə yerləşən, balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;”;

“3.1.1-1. rayon ərazisinə və müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.1-2. rayon ərazisində və müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaların qorunmasını və saxlanılmasını təmin etmək, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək bu binaları müvəqqəti idarə etmək;

3.1.1-3. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.1-4. rayon ərazisində və müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalara və fərdi yaşayış evlərinə sakinlərin köçməsindən irəli gələn təşkilati və digər tədbirlər görmək;

3.1.1-5. rayon ərazisində və müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatın və mənzil-istismar sahələrinin yaradılmasını və idarə olunmasını təşkil etmək, mühəndis-kommunikasiya təminatı sistemlərinin saxlanılmasına, cari və əsaslı təmirinə, eləcə də istismarına nəzarət etmək, mənzil-kommunal infrastrukturunun inkişafını təmin etmək;

3.1.1-6. rayon ərazisində və müvafiq ərazidə əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirmək;

3.1.1-7. rayon ərazisində və müvafiq ərazidə içməli su, kanalizasiya, elektrik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.1-8. idarə etdiyi çoxmənzilli binaların və tikintisini təşkil etdiyi digər obyektlərin, habelə müvafiq ərazidə sosial-mədəni obyektlərin qış mövsümünə istismara hazırlıq işlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.1-9. rayon ərazisində və müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini, eləcə də yaşıllıqların mühafizəsini təşkil etmək;

3.1.1-10. müvafiq ərazidə yerləşən, balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;

3.1.1-11. rayon ərazisində və müvafiq ərazidə məhəllələrin, küçələrin, meydanların, parkların və yaşıllıq zonalarının işıqlandırılması sisteminin istismara yararlı vəziyyətdə olması işini təşkil etmək;

3.1.1-12. İdarəyə ayrılan məqsədli vəsaitlər hesabına Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müvafiq ərazidə sosial təyinatlı və digər obyektlərin tikintisinin təşkilini, onların tikintisi üzrə sifarişçi funksiyalarının yerinə yetirilməsini, habelə bu qaydada tikilmiş obyektlərin qorunmasını, saxlanılmasını və təyinatı üzrə istifadəsini təmin etmək;

3.1.1-13. rayon ərazisində və müvafiq ərazidə bayramlara və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş ictimai tədbirlər keçirmək, tərtibat işləri aparmaq və digər zəruri tədbirlər görmək;

3.1.1-14. rayon ərazisinə və müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar digər dövlət orqanlarının (qurumlarının) sifarişi ilə aparılan tikinti işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.1-15. rayon ərazisində dövlət və bələdiyyə mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası işlərinə zəruri təşkilati dəstək göstərmək;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 mart 2025-ci il**

# Strateji Obyektlərin Mühafizəsi ən yüksək səviyyədədir



**Martın 16-da Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşlarının peşə bayramı günüdür.**

Peşə bayramı ilə əlaqədar Agentliyin rəisi general-mayor İlqar Abbasov və şəxsi heyəti Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla anaraq, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Həmçinin görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanında Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi yad edilərək məzarları üstünə güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşlarının peşə bayramı münasibətilə tədbir Agentliyin akt zalında davam etdirilib.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 mart tarixli Sərəncamı ilə Agentliyin 12 nəfər hərbi qulluqçusu xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə dövlət təltifləri ilə mükafatlandırılıb. Agentlik rəisinin müvafiq əmrləri ilə isə bir qrup hərbi qulluqçu müxtəlif medallar və digər mükafatlarla təltif olunub.

Qeyd edək ki, beynəlxalq terrorizmin və sui-qəsdlərin geniş vüsət aldığı bir vaxtda mühafizə işinin təkmilləşdirilməsi və terrorçuluğa qarşı mübarizə, yüksək peşəkarlığa malik kadrların hazırlanması Agentliyin qarşısında duran əsas vəzifələrdəndir. Situasiya mərkəzinin yaradılması, pilotsuz uçuş aparatlarından, termal və optik spektr şəbəkə kamerası kimi texnikanın yeni nailiyyətlərindən istifadə olunması mühafizə fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsi üçün yaradılmış təminatlardandır.

***XQ***

# İƏT Baş katibi Maliyyə Nazirliyində

**Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) ilə, bu təşkilata üzv olan ölkələrlə əməkdaşlığa böyük əhəmiyyət verir. Ölkəmiz təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarıdır.**

Bunu maliyyə naziri Sahil Babayev martın 15-də İƏT-in Baş katibi Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə bildirib.

Əsəd Məcid Xan Azərbaycanın İƏT-in fəal üzvlərindən olduğunu, ölkəmizin təşkilatın fəaliyyətinin genişləndirilməsi istiqamətində müxtəlif təşəbbüslərlə çıxış etməsindən məmnunluğunu ifadə edib.



Görüş zamanı üzv ölkələr arasında ticarət, nəqliyyat, maliyyə, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində İƏT-in mühüm rol oynaya biləcəyi qeyd edilib, sahəvi nazirlərinin, o cümlədən maliyyə nazirlərinin toplantılarının, həmçinin üzv ölkələrin iş adamlarının iştirakı ilə biznes forumların keçirilməsinin əhəmiyyəti vurğulanıb.

***XQ***

# Azərbaycan Prezidenti “Qələbə – 80”ə dəvət edilib

**Martın 15-də Moskvada qeyri-rəsmi görüş keçirən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng ediblər.**

Səmimi və dostluq mühitində keçirilmiş telefon söhbəti zamanı prezidentlər dövlətlərarası münasibətlərin gələcək inkişafına dair fikir mübadiləsi aparıblar.

Vladimir Putin dövlətimizin başçısını İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı Moskvada keçiriləcək təntənəli tədbirlərə dəvət edib.

Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Moskvada Qələbənin 80 illiyi ilə bağlı keçiriləcək tədbirlərdə görüşəcəkləri barədə razılaşıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Əsgərov Vasif Asif oğlu – polkovnik-leytenant
Mirzəyev Ruslan Cəmil oğlu – polkovnik-leytenant

**“Vətən uğrunda” medalı ilə**

İsmayılov Ramin Əfsələddin oğlu – polkovnik-leytenant
Behbudov Nofəl Arif oğlu – mayor

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Abbasov Hafiz Sakit oğlu – polkovnik-leytenant
Ələkbərov Eldəniz Yaşar oğlu – polkovnik-leytenant
Abdullayev Tural Front oğlu – mayor
Eyvazlı Pərviz Barat oğlu – mayor
Mayılov Elməddin Nəcməddin oğlu – mayor
Musayev İlqar Sabir oğlu – mayor
Heydərov Fuad Abdulla oğlu – kapitan
Nəcəfov Fadiq İsa oğlu – kapitan.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 mart 2025-ci il**

# N.Ə.Əbdürrəhmanın “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Fələstin Dövləti arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Nasir Əbdülkərim Əbdürrəhman “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 mart 2025-ci il**

# Milli Məclis komitəsinin Avropa Parlamentinə etiraz məktubu



**Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Avropa Parlamentinin 2025-ci il martın 13-də qəbul etdiyi qətnamə ilə əlaqədar Avropa Parlamentinə etiraz məktubu ünvanlayıb. Məktubunda deyilir:**

“Biz Avropa Parlamentinin 2025-ci il martın 13-də qəbul etdiyi "Erməni girovların qanunsuz tutulması və qondarma məhkəmə prosesləri" adlı əsassız, qeyri-obyektiv və qərəzli qətnaməyə qəti etirazımızı bildiririk. Suverenlik, qanunun aliliyi və ədalət prinsiplərinin saya alınmadığı bu qətnamədə Azərbaycanın ağır cinayətlərdə iştirak etmiş şəxsləri məhkəmə qaydasında təqib etmək kimi qanuni hüququ tanınmır. Bundan əlavə, qətnamədə son otuz il ərzində mövcud olmuş tarixi şəraitə və Ermənistanın qanunsuz hərəkətləri nəticəsində Azərbaycan xalqının çəkdiyi böyük iztirablara bilərəkdən göz yumulur.

Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ilə yaxın işğal altında saxlamış, dinc Azərbaycan vətəndaşlarına qarşı saysız-hesabsız müharibə cinayətləri törətmişdir.

Beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan silahlı separatçılıq, sülh və insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və terrorçuluq da daxil olmaqla, ağır cinayətlərdə təqsirli bilinənləri məsuliyyətə cəlb etmək üçün tam qanuni hüquqa malikdir. Qətnamədə Azərbaycanın 2023-cü ildə "blokada" və "etnik təmizləmə" həyata keçirməsi barədə irəli sürülən ittihamlar başqa bir şey deyil, diqqəti haqsızlığın əsl günahkarlarından – onilliklər ərzində Azərbaycan torpaqlarını işğal etmiş, 750 min azərbaycanlını zorla yurdlarından qovmuş və işğal altında saxladıqları bütün şəhər və kəndləri yerlə-yeksan etmiş Ermənistan silahlı qüvvələrindən yayındırmağa yönələn siyasi motivli uydurmalardır.

Qeyd edilməlidir ki, Qarabağ bölgəsinin Azərbaycanın Konstitusiya çərçivəsinə yenidən inteqrasiyası beynəlxalq hüquqa tam uyğun həyata keçirilmişdir. Bu baxımdan Avropa Parlamentinin "sanksiyalar", sazişlərin "dayandırılması" və diplomatik məhdudiyyətlər barədə çağırışları Azərbaycanın daxili işlərinə qarışmaq üçün göstərilən qəbuledilməz cəhdlərdir. Bu cür siyasi motivli hərəkətlər regionda sabitliyə xidmət etmir, əksinə, yalnız gərginliyi artırır və davamlı sülhə nail olmaq perspektivlərini sarsıdır.

Azərbaycan haqq-ədalətə, beynəlxalq hüquqa və regional sülh gündəliyinə sadiq olaraq qalır. Heç bir xarici müdaxilə və ya ədalətsiz ittiham bizi qanunun aliliyini qorumaqdan və ölkəmizə qarşı cinayət törədənləri məsuliyyətə cəlb etməkdən çəkindirə bilməz. Hazırda məhkəmə qarşısına çıxarılan şəxslər hərbi əsirlər deyil, Azərbaycan qanunvericiliyini pozmuş, ədalətli və şəffaf məhkəmə prosesi çərçivəsində məsuliyyətə cəlb edilməli olan cinayətkarlardır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Avropa Parlamentini sülhə və barışığa qarşı yönələn siyasi motivli hərəkətlərə yol verməkdənsə, ədalət və suverenlik prinsiplərinə hörmət bəsləməyə çağırırıq. Yalnız haqq-ədalət və qarşılıqlı anlaşma sayəsində Cənubi Qafqazda həqiqi sabitlik əldə edilə bilər”.

***XQ***

# Azərbaycanın 2 şərti və Ermənistana dövlət legitimliyi təminatı



(əvvəli 1-ci səhifədə)

Azərbaycan – Ermənistan münasibətlərinin gələcək strukturu baxımından, kifayət qədər aydın mahiyyət yoxdur və bu, ilk növbədə inamın olmamasından qaynaqlanır. Rəsmi İrəvan ambisiyasını qoruyub saxlayır və mövcud istiqamətdəki mənasız dirənişini 44 günlük müharibədən ötən müddətdə hər zaman göstərib, amma heç vaxt istəyinə nail ola bilməyib. Yenə də heç bir şansı yoxdur. Görünür, Ermənistana şans yox, illüziya daha çox lazımdır. Baş nazir Nikol Paşinyan administrasiya üçün illüziya avantürizmin davamı baxımından lazımdır. Avantürizm isə Azərbaycan torpaqlarının qəsbi üzərində qurulub. Prezident İlham Əliyev forumdakı çıxışında heç də əbəs yerə hazırkı erməni iqtidarının zaman-zaman səsləndirdiyi sərsəm bəyanatları, təhrikçi hərəkətləri xatırlatmadı. Dövlətimizin başçısı, mahiyyət etibarilə, Ermənistana etimadın sıfıra bərabər olmasına dair fikrini əsaslandırdı və beynəlxalq ictimaiyyətə Paşinyan iqtidarını "sülh göyərçini" kimi təqdim etməkdən uzaq durmağı məsləhət gördü.

Ölkəmizin liderinin mövcud fonda üzərində dayandığı, özünün əvvəllər də dəfələrlə səsləndirdiyi iki şərt oldu: ATƏT-in Minsk qrupunun ləğvi və Ermənistan konstitusiyasının dəyişdirilməsi. Bu iki şərt sülh müqaviləsinin mətnində yer almır və prinsipcə, ala bilməz. Azərbaycan, sadəcə, barış sazişi üçün iki fundamental məqamı qabardır ki, həmin məqamların hər ikisi Ermənistanın işğalçılıq niyyətinin mövcudluğunu vurğulayır.

***

ATƏT-in Minsk qrupunun ləğvindən, daha doğrusu, ölkəmizin onun ləğvinin vacibliyini əsaslandıran tələbindən başlayaq. Rəsmi Bakı İrəvanla birgə mövcud istiqamətdə müvafiq müraciətin ünvanlanmasını irəli sürür. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın iki gün əvvəlki açıqlamasından gəlinən qənaət budur ki, Paşinyan iqtidarı buna razıdır, amma sülh müqaviləsi imzalandıqdan sonra.

Yanaşma absurddur və eyni yanaşmanı N.Paşinyan da bir müddət öncə "Real Ermənistan"la bağlı qələmə aldığı düşüncələrində nümayiş etdirmişdi. O da ATƏT-in Minsk qrupunun ləğvini sona saxlamışdı. Bu, heç diplomatik davranma da deyil. Rəsmi İrəvan, guya, sülh müqaviləsinin imzalanmasını təminata alır. Bir halda ki, Minsk qrupu Azərbaycan torpaqlarına qəsbin leqallaşdırılmasına, hansısa formada Azərbaycanı Qarabağ üzərində erməni hüququna razı salmağa yönəlmiş təsisat idi, o zaman düşünək ki, hazırda Ermənistan hakimiyyəti həmin qurumun ləğvinə əhəmiyyətsiz yanaşmaqla ölkəmizi yenidən işğalçılıq niyyətinə düşəcəyi ilə şantaj edir? Axı o Paşinyan idi ki, 2022-ci ildə Praqada Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını açıqlamış, 2023-cü ildə Brüsseldə mövqeyini təkrarlamışdı.

İndi biz Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin sərsəmləməsinə ciddi yanaşaq? Səfir Nikolun Praqada Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımadığını böyük israrla bildirmişdi. Bəs hazırda sülh müqaviləsinin mətnində ərazi bütövlüyünün və suverenliyin tanınmasına dair müddəa nədir? Ermənistan tərəfi çox tez-tez bu barədə söz açır.

Əlbəttə, həm səfir Dekotini, həm də rəsmi İrəvan qarşılıqlı tanınma söhbəti düşəndə, 1991-ci ilin Alma-Ata Bəyannaməsi üzərində dayanır. Ermənistanda bu bəyannamə ilə bağlı manipulyasiyalardan xəbərimiz var və onlara əsasən belə rəyə gəlmək mümkündür ki, erməni siyasi industriyası Qarabağ məsələsini Alma-Ata məntiqindən kənar tutmağa köklənib. Heç şübhəsiz, bu kökləniş Paşinyan iqtidarı üçün də xarakterikdir. Sadəcə, hazırda Nikolun komandasının üzvləri sakitcə gözləmə mövqeyində dayanıblar. Görəsən, onlar niyyətlərini anladığımızı bilmirlər? Bu qədər fırıldaqla nəyisə əldə etməyin mümkünlüyünü ağıllarından necə keçirirlər?

Etimad quruculuğunu zədələyən bütün bunlardır, hələ sadalamadığımız digər cəhətlər də var. O zaman biz necə inanaq ki, Ermənistan sülh müqaviləsi imzalandıqdan sonra Azərbaycanın ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı tələbini yerinə yetirəcək? Axı bu tələbin yerinə yetirilməsi böyük ölçüdə Ermənistanın bir daha təcavüzkar siyasət aparmaq niyyətinə düşməyəcəyinə dair ən real təminatlardan biridir. Məsələnin mahiyyətini anlamaq beləmi çətindir?

İkinci təminat isə Ermənistan Konstitusiyanın dəyişdirilməsi, onun işğalçılıq simgəsinin aradan qaldırılmasıdır. Mövcud istiqamətdə də anlaşılmayacaq heç nə yoxdur. Fikrimizi məsələyə bir qədər geniş yanaşaraq əsaslandıraq. Ancaq əvvəlcə erməni iqtidarının Azərbaycanın haqlı tələbinə son münasibətini diqqətə çatdıraq. N.Paşinyan bu günlərdə çox açıq şəkildə bildirdi ki, Bakının konstitusiya dəyişikliyi ilə bağlı tələbi yerinə yetirilməyəcək, guya, konstitusiya məsələsi Ermənistanın daxili işidir və sair.

Yada salaq ki, həmin Nikol 2024-cü ilin fevralında demişdi ki, Ermənistanın İstiqlaliyyət bəyannaməsində yer alan "Dağlıq Qarabağ" ifadəsi sülh üçün problem yaradır. Erməni baş nazir sonradan ölkə parlamentində çıxış edərkən də həmin sənəddən söz açmışdı. "Son illərdə mən İstiqlaliyyət bəyannaməsini dəfələrlə oxudum və dəhşətli nəticəyə gəldim ki, bu bəyannamənin mahiyyəti ilə Ermənistan Respublikası mövcud ola bilməz. Bu, bizim ən böyük problemimiz və faciəmizdir. İndi sual budur ki, əsl Ermənistan nədir və onun vətəndaşları kimlərdir. Əsl Ermənistanın vətəndaşı o kəsdir ki, bu yerdən kənarda vətən və ata axtarmır", – deyən N.Paşinyan yeni konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilməsinin zəruriliyini bəyan etmişdi. O, əsas qanunda İstiqlal bəyannaməsinə istinadın sülh mühitinin qərarlaşmasına əngəl törətdiyini, yeni konstitusiyanın ölkəni indiki geosiyasi şəraitdə daha həyat qabiliyyətli edəcəyini bildirmişdi.

Elə isə hər şey aydın deyilmi? Görünür, aydın deyil ki, Nikol hazırda Ermənistan konstitusiyasında ərazi iddiasının olmadığını vurğulayır. Qeyd edək ki, Nikol az əvvəl diqqətə çatdırdığımız fikirlərini 2024-cü ilin noyabrında səsləndirib. Yəni, həmin vaxt o, İstiqlaliyyət bəyannaməsindən, belə demək mümkünsə, işğalçı konstitusiya doğduğunu vurğulayıb.

Paşinyan hazırda Ermənistan konstitusiyasında ərazi iddiasının olmadığını bildirərkən, haqqında söz açdığımız çıxışdan əvvəlki, yəni 2024-cü ilin sentyabrındakı qərardan danışır. O, elə görüntü formalaşdırır ki, sanki Ermənistan konstitusiya məhkəməsinin həmin tarixdə çıxardığı qərar əsas qanunun işğalçılıq ritorikalı anlamını heçə endirib. Əlbəttə, belə yanaşma manipulyativdir və bu kimi məqamlara görə dövlətimizin erməni iqtidarına inamı və etibarı yoxdur.

Onu da yada salaq ki, Ermənistan konstitusiyasında 1990-cı ilin avqustunda qəbul edilmiş İstiqlaliyyət bəyannaməsinə birbaşa istinad var. Yəni bir məhkəmə qərarı bu istinadı aradan qaldıra bilməz. Bəyannamədə açıq şəkildə bildirilir ki, erməni xalqı burada əksini tapmış prinsipləri rəhbər tutur. O zaman diqqət yetirək, görək həmin prinsiplərdə ölkəmizi razı salmayan məqam nədir? Nəzərə alaq ki, erməni cəmiyyəti proqmatik düşünsə, bəyannamənin ziyanının nədən ibarət olduğu qənaətinə gələr. Yəni Nikolun "bu bəyannamənin mahiyyəti ilə Ermənistan Respublikası mövcud ola bilməz" fikrinin nə məna daşıdığını anlayar.

Baxın, Ermənistanın İstiqlaliyyət bəyannaməsinin preambulasında bildirilir ki, sənəd həm də Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1989-cu il dekabrın 1-də çıxardığı Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında qərarına söykənir və 1918-ci il mayın 28-də yaradılmış müstəqil Ermənistan Respublikasının demokratik ənənələrini inkişaf etdirmək, demokratik, hüquqi cəmiyyət yaratmaq əzminin ifadəsidir. Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiasının olduğundan dəm vuran Paşinyan isə Əsas qanunumuzun istinad nöqtəsi olan "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının ikinci maddəsindəki "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir" fikrini ərazi iddiası kimi qiymətləndirir.

Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkibində yer alıb. Necə ola bilər ki, Azərbaycan ərazisindəki bir ərazi vahidinin qərarı Ermənistanın müstəqilliyinin əldə olunması üçün əsas sayılsın? Əgər belədirsə, o zaman ortaya başqa məsələ çıxır. Azərbaycan dövləti Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv edib. Bununla əlaqədar qərar veriləndə dünya ölkəmizin müstəqilliyini tanımışdı. Başqa sözlə desək, beynəlxalq legitimliyimiz var idi və hüquqi baxımdan legitim qərarla DQMV inzibati ərazi vahidi qismində tarixin arxivinə göndərilirsə, deməli, Ermənistan dövlətinin yaradılışının hüquqi bazası da sarsılır.

***

Daha bir vacib məqama keçid alaq. Bəli, Azərbaycan dövləti özünü 1918 – 1920-ci illərdə mövcud olmuş AXC-nin varisi saya bilər. Ermənistanın İstiqlaliyyət bəyannaməsi də həmin illərdə mövcud olmuş respublikanın ənənələrinə istinad məntiqini qoruyur. Elə isə sual olunur: 1918-1920-ci illərdə mövcud olmuş Ermənistanın ərazisi indiki qədər idimi? Xeyr, az idi. O illərdəki Azərbaycanın da ərazisi indikindən xeyli böyük olmuşdu. O zaman bir nəticəyə də gələk ki, Ermənistanın İstiqlaliyyət bəyannaməsi 1918 – 1920-ci illərdəki erməni dövləti ilə kifayətlənməni təlqin edir. Daha doğrusu, bu tezis qanunidir. Nə gözəl?

Deməli, erməni varlığı əvvəl Sovet Rusiyası, sonra SSRİ tərəfindən ona verilmiş Azərbaycan torpaqlarını geri qaytarmalıdır. Üstəlik, həm bu, həm də erməni İstiqalaliyyət bəyannaməsinin Qarabağ məntiqinin əndrəbadiliyindən doğan ümumi nəticə odur ki, hazırkı Ermənistan dövlətinin hüquqi əsası yoxdur. Başqa sözlə desək, Paşinyanın "Real Ermənistan" dediyi nağıldır.

Sonda bütün bunları nəzərə alaraq bildirək ki, əslində, Azərbaycanın Ermənistanla sülh üçün irəli sürdüyü iki şərtin yerinə yetirilməsi ikincinin məhz özü üçün son dərəcə vacibdir. Bu, həm də Nikolun nağılının gerçəkliyə çevrilməsi üçün real şansdır. Qalır rəsmi İrəvanın konstruktiv mövqe tutmağı, səmimiyyət nümayiş etdirib şansdan istifadə etməyi. Hazırda bunun üçün münbit şərait var. Elə bir şərait ki, bir daha yetişməyə bilər.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

(əvvəli 1-ci səhifədə)

Bu yanaşma Aİ-nin xarici siyasətində də özünü göstərir. Xüsusilə, Cənubi Qafqazda Aİ-nin Ermənistan və Azərbaycan arasındakı münasibətlərə dair apardığı siyasət rəsmi dəyərlərlə real maraqlar arasındakı ziddiyyətləri üzə çıxarır. Azərbaycan enerji baxımından Aİ üçün strateji tərəfdaş olsa da, İttifaqın Ermənistana siyasi və diplomatik dəstək verməsi daha qabarıq şəkildə müşahidə olunur. Bu yanaşma Aİ-nin dəyərlər üzərində deyil, maraqlar əsasında qərarlar verdiyini təsdiqləyir.

münaqişənin obyektiv həllinə töhfə vermək əvəzinə, birtərəfli siyasət yürütmüşdür. Bu isə nəticə etibarilə beynəlxalq hüququn və Cenevrə konvensiyalarının pozulmasına şərait yaratmışdır. Avropa Parlamentində Azərbaycana qarşı edilən tənqidi çağırışlar da bu lobbinin təsirindən qaynaqlanır.

Paris son 30 il ərzində Ermənistan – Azərbaycan münaqişəsinin həlli prosesində qeyri-obyektiv yanaşma sərgilədi. Fransa ABŞ və Çindən sonra ən böyük üçüncü diplomatik şəbəkəyə malikdir. Aİ daxilində yeganə nüvə silahına sahib dövlətdir və BMT Təhlükəsizlik Şurasının daimi üzvü-

# Geosiyasi maraqlar və tərəfkeşlik amili



Məsələnin ən diqqətçəkən aspektlərindən biri Fransanın bu prosesdə oynadığı roldur. Paris uzun müddətdir ki, Ermənistanın əsas siyasi müttəfiqlərindən biri kimi çıxış edir və bu mövqeyini Aİ-nin ümumi strategiyasına da "yoluxdurur". Fransanın Ermənistana hərbi, diplomatik və siyasi dəstəyi təkcə ikitərəfli münasibətlərlə məhdudlaşmır, eyni zamanda, Aİ səviyyəsində də öz əksini tapır. Bunun bariz nümunəsi 2025-ci il martın 13-də Avropa Parlamentinin "erməni girovların qanunsuz tutulması və qondarma məhkəmə prosesləri adlı" əsassız, qeyri-obyektiv və qərəzli qətnamədir. Həmin qətnamənin lehinə təşviqatın əsas təşkilatçılarından biri məhz Fransa olmuşdur. Bu fakt Aİ-nin Cənubi Qafqaz siyasətinin obyektivliyinə ciddi kölgə salır.

Fransada erməni xristianlarının siyasi və ictimai həyatda oynadıqları rol da nəzərəçarpacaq dərəcədə böyükdür. Fransada təxminən yarım milyon erməni yaşayır və onların güclü diasporu ölkənin siyasi mühitində təsirli mövqeyə malikdir. Xüsusilə, erməni lobbisi Fransanın sağçı katolik hərəkatları ilə sıx əlaqələr quraraq öz təsir dairəsini genişləndirməkdədir. Bu əlaqələr nəticəsində erməni xristianları Fransada yalnız bir etnik və dini qrup olmaqdan çıxaraq, eyni zamanda, siyasi qüvvəyə çevrilmişlər.

Bu tendensiya xüsusilə son 30 ildə Fransanın ATƏT-in Minsk qrupundakı roluna da təsir etmişdir. Minsk qrupunun həmsədri olan Fransa Ermənistanın maraqlarını müdafiə edən mövqe sərgiləyərək, dür. Lakin belə bir qlobal gücün erməni lobbisinin təsiri altında qalması və Cənubi Qafqazda neytral vasitəçi kimi çıxış edə bilməməsi onun diplomatik etibarlılığına ciddi zərbə vurur. Fransanın sağçı "Les Républicains" partiyası və digər siyasi qüvvələr Ermənistanı dəstəkləyən mövqelər sərgiləyir, bu isə regional sabitliyə və beynəlxalq hüquqa uyğun deyil.

Sənəddə Azərbaycanın regionda enerji təhlükəsizliyindəki rolu, Avropanın enerji şaxələndirilməsinə verdiyi töhfə və Bakı – Brüssel münasibətlərinin strateji əhəmiyyəti haqqında heç bir real dəyərləndirmə yer almır. Halbuki, Aİ-nin enerji təhlükəsizliyi strategiyası çərçivəsində Azərbaycan mühüm tərəfdaş kimi çıxış edir. 2022-ci ildə imzalanmış Aİ – Azərbaycan enerji memorandumuna əsasən, Azərbaycan Avropaya qaz tədarükünü artırmağı öhdəsinə götürüb. Bu kontekstdə Azərbaycanın maraqlarını gözardı edən bu qətnamənin qəbulu Aİ-nin real geosiyasi şərtlərdən nə qədər uzaqlaşdığını və prinsipləri sadəcə diplomatik ritorikada saxladığını göstərir.

Yekun olaraq qeyd etmək istərdik ki, Aİ-nin selektiv yanaşması, Cənubi Qafqazdakı siyasətində tutduğu mövqe və Fransanın bu kontekstdəki rolu təşkilatın iddia etdiyi fundamental dəyərlərlə ziddiyyət təşkil edir. Bu isə Aİ-nin tərəfsiz və ədalətli bir beynəlxalq aktor kimi çıxış etməsi perspektivini ciddi şəkildə zəiflədir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İƏT ölkələri ilə aqrar əməkdaşlıq müzakirəsi



**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov XII Qlobal Bakı Forumu çərçivəsində ölkəmizdə səfərdə olan İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Məcnun Məmmədov Azərbaycanda aqrar sahədə aparılan islahatlardan söz açıb, ölkəmizin qlobal çağırışlardan irəli gələn təşəbbüslərə böyük həvəslə qoşulduğunu, beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlığa önəm verdiyini vurğulayıb. Kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanlarına toxunan nazir Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib.

Nazir əlavə edib ki, Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusilə kənd təsərrüfatında qarşıya qoyulan hədəflərə nail olmaq üçün qida və ərzaq təhlükəsizliyinin bütün mərhələləri üzrə təşkilatdaxili əməkdaşlığın genişləndirilməsi zəruridir.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xan təşkilatın fəaliyyət planı, icra olunan layihələr və həyata keçirilən tədbirlər barədə məlumat verib. O, İƏT ölkələrində kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılması və ölkələrarası ticarətin genişlənməsi üçün böyük potensialın olduğunu qeyd edib.

***XQ***

# Milli maraqlar kənar təhdidlərə sipərdir

(əvvəli 1-ci səhifədə)



Prezident İlham Əliyev bütün çıxışlarında bu amili önə çəkir ki, ölkəmizdə sabitliyin, davamlı inkişafın əsas təminatçısı xalq–hakimiyyət birliyidir. Bu tezis tanınmış siyasətçilər, ekspertlər tərəfindən də etiraf olunur. Xalq–hakimiyyət birliyinin möhkəm olduğu, islahatların, təşəbbüslərin dəstəkləndiyi ölkədə hansısa narazılıqdan söhbət gedə bilməz.

Azərbaycanın adının nümunəvi ölkələr sırasında qeyd olunması məhz bu reallığın təsdiqidir. Daxili siyasətin uğurları beynəlxalq səviyyədə reytinqin müəyyənləşməsində stimulverici amildir. İlham Əliyev məhz bu uğurlara söykənərək bildirir: “Uğurlu xarici siyasət aparmaqla biz özümüzü mümkün olan xarici risklərdən qoruyuruq və buna nail oluruq. Bəzən bizim xarici siyasətimizi tarazlaşdırılmış siyasət kimi qələmə verirlər. Ancaq mən hesab edirəm ki, bizim xarici siyasətimiz milli maraqlar üzərində qurulub. Milli maraqlar diktə edir ki, biz bütün ölkələrlə işgüzar, bərabərhüquqlu, bir-birinin işinə qarışmamaq şərti ilə münasibətlər quraq və qurmuşuq. Qonşularımızla, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə, eyni zamanda, Avropa ölkələri ilə. Yəni biz buna nail ola bilmişik, eyni zamanda, öz milli maraqlarımızı həmişə lazımi səviyyədə qoruyuruq və qoruyacağıq”.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin “Euronews” telekanalına müsahibəsində rəsmi Bakının geosiyasi baxımdan ümumi xəttini konkret və lakonik şəkildə dilə gətirib. Həm regiondakı vəziyyəti əks etdirmək, həm də qlobal gündəm baxımından Azərbaycan liderinin milli müstəqilliyin qorunması, tarixi ədalətin bərpası ilə bağlı dedikləri daha çox xarici auditoriyaya ünvanlanan mesajlardır. Əslində, bu, hər bir dövlətin daha çox ehtiyac duyduğu reallıqlardır. Bu mənada, İlham Əliyevin dedikləri burada və indi öz ölkələrinin maraqlarını müdafiə etməyə çalışanlar üçün, belə deyə bilərik ki, polifonik formata malikdir. Maraqlı məqam odur ki, Azərbaycan Prezidentinin qlobal problemlərlə bağlı konkret mövqe bildirməsi onun hansı auditoriyada və hansı dildə danışmasından asılı deyil. Onun dilindən hər şey şəffaf, dəqiq, aydın və ən əsası, səmimi səslənir. Bunu dövlət başçısının “Euronews”a müsahibəsində bir daha gördük.

Dünya media məkanında populyarlardan biri sayılan telejurnalistin Bakıda keçirilən forumu planetar ictimaiyyət üçün əlamətdar hadisə kimi dəyərləndirməsini İlham Əliyev suala verdiyi ilk cavabı ilə təsdiqləyib. Bakı Forumunun diskussiya xarakteri daşıdığını vurğulayan dövlət başçımız bunu beynəlxalq vəziyyətin “kəskin dəyişməsi” ilə əsaslandırıb. Ölkə Prezidenti tədbir iştirakçılarının “çoxsaylı fikirlərinin” olduğunu bildirərək, onların fərqliliyindən məmnunluğunu dilə gətirib. O, XII Qlobal Bakı Forumunu sələfləri kimi “beynəlxalq problemlərə yeni yanaşmaların inkişafında mühüm rol oynayacaq” ciddi platforma kimi dəyərləndirib.

* * *



**Mövzu ilə bağlı XQ-yə açıqlama verən siyasi şərhçi Tofiq Abbasov** hazırda dünyada cərəyan edən hadisələrin fonunda qlobalistlərlə ultraqlobalistlərin həm öz aralarında, həm də dünya uğrunda gərgin mübarizəsinin müşahidə olunduğuna diqqət çəkdi: “Bu qüvvələrin istəyi ondan ibarətdir ki, dövlətlərin və xalqların milli maraqlarını zəiflətsinlər. Prezident İlham Əliyevin ötən il Prezident kimi andiçmə mərasimində və yeni parlamentin qarşısındakı çıxışlarında xalqın milli maraqlarının, o cümlədən gənclərin milli-mənəvi dəyərlərə sadiqliyinin ən ümdə məsələlər olduğunu vurğulaması heç də təsadüfi deyildi. Bəli, bu tezis hamımıza bir xatırlatma olmaqla yanaşı, ayıq olmağa çağırışdır. Çünki, dünyada bəzi qüvvələr aşkar şəkildə ayrı-ayrı toplumların azad və firəvan yaşamasını qəbul edə bilmir, onları tutduqları yoldan döndərməyə çalışırlar. Ona görə ultraqlobalistlər xüsusilə bildirirlər ki, – bir çox hallarda qlobalistlər də onlarla razılaşırlar – dövlətlər özlərinin ilkin mahiyyətini itirib, onlar xalqlar üzərində idarəetmə funksiyalarını zəiflətməlidirlər. Yəni, onların düşüncəsinə görə, insanlar, bir növ, biokütləyə çevrilməlidirlər. Bu qüvvələrin baxışı, konkret olaraq, bundan ibarətdir.

Əslində, qlobalistlər ən ali məqamda insan cəmiyyətini iki kateqoriyaya bölmək istəyirlər. Biri elit bölgə, digəri isə ikinci dərəcəli toplum – biokütlə olmalıdır. Məhz buna görə cənab Prezidentin çıxışlarında bu fikirlər həmişə dominantlıq təşkil edir ki, Azərbaycan cəmiyyətinin düşünən kəsimi, siyasi elitamız dövlətin və xalqın maraqlarının müdafiəsində gərək yekdil olsunlar, həmahəng fəaliyyət göstərsinlər. Azərbaycan ərazi bütövlüyünü, suverenliyini ona görə tam bərpa etməyib ki, kimlərsə yuxarıdan boylanıb, bizə yol göstərsinlər, eləcə də aldadaraq yanlış istiqamətə sövq etsinlər. Xeyr, bu, baş tutmayacaq. Bizim yolumuz aydın, hədəflərimiz bəllidir. İnkişaf paradiqmalarımız da müəyyən edilib. Bunların hamısı millətimizin maraqlarının reallaşmasına köklənən məsələlərdir.

Azərbaycan Prezidentinin bu proseslərlə bağlı çıxışları həmişə aktuallığı ilə seçilir. Sadəcə, istər şəhərdə, istər əyalətdə, istərsə də Azərbaycandan kənardakı vətəndaşlarımız, insanlarımız üçün dövlətimizin və xalqımızın milli maraqları hər şeydən üstün olmalıdır. Milli evimiz olan Azərbaycanı birlikdə qurmalı və gücləndirməli, istənilən xarakterli təhdid və çağırışlara cavab verməyə hazır olmalıyıq”.

İlham Əliyev müsahibəsində diqqəti planetin “yeni qayda və normaların işlənib hazırlanması mərhələsində” olduğuna çəkərək “köhnə dünya nizamı artıq mövcud deyil” – dedi. Yəni, reallıq ondan ibarətdir ki, hazırkı mərhələdə “beynəlxalq ictimaiyyətin qarşılıqlı fəaliyyətinin yeni forması”na aydın və birmənalı baxış yoxdur. Hər bir dövlət “öz daxili imkanlarına” daha çox diqqət yetirir və bu zaman “kənardan hansısa yardıma, yaxud beynəlxalq hüquqa bel bağlamır”.

Bu, üç onillik ərzində Azərbaycanın üzləşdiyi reallıq, heç vaxt unutmayacaqı acı təcrübədir. İlham Əliyev “beynəlxalq hüququn selektiv yanaşmasından əziyyət çəkən” Azərbaycanla yanaşı, “gələcəyini öz resursları üzərində qurmağı” bacarmış Azərbaycanı da misal göstərdi: “Biz güclü, müstəqil iqtisadiyyat qurmuşuq və heç kimdən asılı deyilik”.

Bəli, iqtisadi müstəqilliyin özü beynəlxalq aləmdə böyük imkanlar yaratmış, Azərbaycana şərəf və ləyaqətlə müstəqil xarici siyasət aparmağa imkan vermişdir. İlham Əliyev “Euronews” telekanalına müsahibəsində “Bizim dünya düzənini necə başa düşməyimizin tamamilə düzgün olduğunu” qeyd edərək fikirlərini “Biz bunu necə etdik və edəcəyik” – deyə yekunlaşdırdı. Xoşbəxtlikdən Bakı milli maraqlarımızla bağlı heç bir quruma və heç kimə arxalanmadı.

* * *

“Əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu sizi zəiflədəcək, ikincisi, yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək həmin şəxs gəlib sizdən hesabat istəyəcək. Bizim təcrübəmiz uğurlu olmuş və onun uğurlu olması sübuta yetirilmişdir. Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq”.

Tezisin konkret, qısa və aydınlığına diqqət yetirdinizmi? Bunu dövlət başçımız Azərbaycanın üzləşdiyi ədalətsizliyə və acı təcrübəyə söykənərək, dilə gətirdi. Həm də dünyaya, bizi sevməyənlərə Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü təkbaşına bərpa etmək aspektində nə qədər uğurlu olduğunu bəyan etdi. Bu, milli maraqlara arxalanan liderin gələcəyə əminliyinin parlaq ifadəsi idi.

“Euronews” telekanalına müsahibəsində dünyada münaqişələrin sayının geniş vüsət almasına diqqət çəkən İ.Əliyev bundan narahatlığını bildirdi: “Əgər siz öz həllini tapmış münaqişə axtarsanız, görə bilərsiniz ki, sadəcə burada, Qarabağda olan münaqişə öz həllini tapıb. Bu, beynəlxalq hüquq, tarixi ədalət əsasında həllini tapmış yeganə münaqişədir. Bu həlli bütün dünya qəbul edir”.

Telejurnalistin geosiyasi arenada baş verən yeniliklərlə bağlı son sualını cavablandıran İlham Əliyev Vaşinqtonda baş verənlər, Ağ evin yeni administrasiyasının siyasəti ilə bağlı bunları söylədi: “Bu, bir daha bütün dünyanın Ağ evdə qəbul edilən qərarlardan asılı olduğunu nümayiş etdirir. Beləliklə, bu, qlobal geosiyasi dəyişikliyin mənbəyidir. O, yenicə başlayıb və biz bu geosiyasi dəyişikliyin ilk aylarını yaşayırıq”.

İlham Əliyev ardınca milli maraqlarımıza ədalətsiz yanaşma səbəbindən ABŞ-ın əvvəlki administrasiyası ilə Azərbaycan arasında münasibətlərin korlanmasına toxundu: “Onların mövqeyi ədalətsiz yanaşmadan ibarət idi. Buna görə biz Tramp Administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq”.

Azərbaycan lideri davam edən XII Qlobal Bakı Forumunun əhəmiyyətini bir daha vurğulayaraq, bu cür forumların “düzgün qiymətləndirmə, fikir mübadiləsi, problemlərin müzakirəsi və gözləntilər üçün vacib” olduğunu bildirdi. O, forum çərçivəsində “təşəbbüskarlarla” yanaşı, baş verənlərdən “məyus olan” iştirakçılardan da danışdı: “Qonşu zalda bəzi insanlar var ki, onlar nikbin olmaq əvəzinə daha çox məyusdurlar. Bu da təbiidir, çünki hər bir ölkənin öz maraqları var. Hər bir siyasətçinin öz baxışları var. Mən ümid edirəm ki, burada, bu forumda ideyaların toqquşması baş verəcək və bu da forumu uğurlu edəcək”.

Dünən öz işinin yekunlaşdıran XII Qlobal Bakı Forumu çərçivəsində baş verən ən yaddaqqalan məqamlardan biri kimi Prezidenti İlham Əliyevin “Euronews” telekanalına verdiyi müsahibəsini göstərə bilərik. Beynəlxalq miqyasda baş verən qlobal dəyişikliklərə konseptual yanaşması ilə seçilən bu müsahibədə dövlət başçımız dünyaya yeni mesajlarını çatdırmış oldu. Həmin mesajların leytmotivini Azərbaycan və onun milli maraqları təşkil edirdi – desək, səhvə yol vermərik. Bu dəyişməz siyasi xəttin bünövrəsi 1993-cü ildə – Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra qoyulub. Onun müəllifi olduğu azərbaycançılıq ideologiyasının təməlində məhz milli və dövlət maraqlarının vəhdəti durur. Azərbaycanda bu iki dəyərin bir-birini tamamlaması, üst-üstə düşməsi təsadüfi deyil. “Euronews”a müsahibədə milli maraqlarımızın daim üstün tutulacağının vurğulanması həmin sağlam siyasi xəttin Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilməsinin təzahürüdür.

***İmran BƏDİRXANLI***
***XQ***

# Yerli problemləri beynəlxalq gündəmə daşıyan forum

## *Bakı müzakirələri haqsızlığa qarşı narahatlığın ən yüksək ifadəsi oldu*

**Bu gün dünyanı narahat edən problemlərin həlli, planetin müxtəlif nöqtələrində baş verən mənfi hadisələrin qarşısının alınması yolları ilə bağlı çağırışların səsləndiyi XII Qlobal Bakı Forumunun real imkanların müzakirə edildiyi beynəlxalq platformaya çevrildiyi şəksizdir. Forumun panel iclaslarında diqqəti çəkən məqamlardan biri çıxış edənlərin öz ölkələrində rastlaşdıqları problemləri bu tribunadan dilə gətirmələri oldu. Bakı Forumu dünyanın müxtəlif ölkələrindən Azərbaycan paytaxtına gəlmiş insanların öz aralarında yeni əlaqələr qurmaları üçün də öz töhfəsini verdi.**




Ölkələrin və xalqların maraqlarının və təhlükəsizliyinin qorunmasına xidmət edən beynəlxalq səviyyəli platforma kimi Bakı Forumu qlobal problemlərin müzakirə olunduğu tribuna idi. Azərbaycan sülh və ədaləti dəstəkləyən niyyət və məqsədlərini bir daha bütün dünyaya bəyan etdi, hamını beynəlxalq hüquqa hörmətlə yanaşmağa, əl-ələ verib problemlərin həllinə səslədi.

* * *

Dünya birliyi çətin və təhlükəli bir mərhələdən keçidin ağrısını yaşamaqdadır. Bir tərəfdən məhəlli münaqişələr, separatizm, digər tərəfdən bölgələrdə lokal və genişmiqyaslı müharibələrlə üz-üzə qalmış dünyanın yeni nizamının formalaşdığını müşahidə edirik. Aydın məsələdir ki, böyük güclərin günahı ucbatından yaranan bu kataklizmlər kiçik dövlətləri və xalqları daha çox narahat edir. Bəs, baş verən geosiyasi proseslər fonunda mövcud beynəlxalq hüquq və normalar həmin kiçik ölkələrə və xalqlara münasibətdə eyni cür, heç bir ayrı-seçkilik qoyulmadan tətbiq edilirmi? Bu zaman bərabərlik, ədalətlilik prinsiplərinə nə dərəcədə əməl olunur? Biz hələ planeti narahat edən meqa-təhdidlər arasında iqlim və ərzaq təhlükəsizliyi məsələlərini demirik.

Şübhəsiz ki, narahatlıq doğuran bu məsələlər ətrafında XII Qlobal Bakı Forumunu çərçivəsində təşkil edilmiş plenar iclaslarda geniş fikir mübadiləsi aparıldı, təşəbbüslər irəli sürüldü, təkliflər səsləndirildi.

Forum iştirakçılarının sayının ilbəil çoxalması isə bu beynəlxalq platformanın nüfuzunun yüksəlməsindən xəbər verir. Burada dünyanın müxtəlif ölkələrindən gəlmiş çox sayda yüksəksəviyyəli rəsmilərlə yanaşı, Okeaniyanın kiçik ada dövlətlərinin təmsilçiləri ilə də rastlaşmaq mümkün idi.

Bakı Forumunda ən maraqlı və narahatedici çıxışları da həmin kiçik dövlərtlərin nümayəndələrinin dilindən eşitdik. Misal üçün, Maltanın sabiq baş naziri Cozef Muskat forumun panel iclasında çıxışını götürək. O deyib ki, əvvəllər qlobal ticarəti əsasən böyük dövlətlər təşviq edirdi, amma indi bu prosesdə kiçik ölkələr də mühüm rol oynayırlar: “Bu, qloballaşmanın gətirdiyi yeniliklərdən biridir və eyni zamanda, bir sıra yeni fürsətlər yaradır”. Çıxışında iqtisadiyyatın asılılıq nəzəriyyəsinə əsaslandığını, dünyada təchizat zəncirinin dəyişərək yeni formaya düşdüyünü bildirən C.Muskat əlavə edib ki, bəzi kiçik dövlətlər, o cümlədən Malta, böyük güclərə qarşı özünü necə qorumağı hələ bilmir. Onun “Rusiya qlobal miqyasda böyük güc hesab olunur, amma onun iqtisadiyyatı Kaliforniyanın iqtisadiyyatı qədərdir. O zaman Rusiya niyə böyük güc kimi qəbul edilir?”– sözləri forum iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Bu cür açıq fikirlərin səsləndiyi Bakı Forumu çeşidli problemlərlə üzləşən ölkələrin rəsmiləri üçün həm də ikitərəfli görüş, əməkdaşlıq fürsəti yaratmışdı.

* * *

“Dünyada sülhün təmin edilməsi üçün kollektiv səylər və sıx əməkdaşlıq vacibdir”. Bu barədə danışan Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin dünyanın bir çox yerində, hətta Azərbaycan və Ermənistan arasında da hələlik davamlı sülhün əldə olunmamasına diqqəti yönəltdi: “Dünyada sülhün təmin edilməsindən ötrü kollektiv səylərə və əməkdaşlığa ehtiyac var”.

Vaşinqtonda, Moskvada, İstanbulda, Ciddədə, Brüsseldə, eləcə də digər şəhərlərdə böyük münaqişələrin həlli yollarının axtarıldığı indiki məqamda onun baş verənlərdən keçirdiyi narahatlığı başa düşmək çətin deyildi. Sabiq nazir öz ölkəsindən söz açaraq vurğuladı ki, Türkiyə regional proseslərdə mühüm rol oynayır: “ABŞ və Avropa arasındakı problemlər regional məsələlərdə Türkiyənin əhəmiyyətini bir daha qabarıq göstərir. Hazırkı dövrdə proseslərdə iştirak zamanı qərəzsizlik çox önəmlidir. Rusiya–Ukrayna müharibəsinə baxsaq, Türkiyənin tərəflərlə normal münasibəti var və ancaq müharibənin bitməsi istiqamətində real addım atmağa hazırdır. Türkiyə həmin bölgədə sülhün bərqərar olmasına kömək göstərə bilər”.

Bosniya və Herseqovina Rəyasət Heyətinin sədri Jelka Tsviyanoviç panel müzakirələrdə aktual problemlərlə dolu müasir dünyamızda dialoqun vacibliyini vurğulayaraq, Bakı Forumunun belə müzakirələr üçün çox vacib platforma olduğunu bildirib. O, fikir mübadiləsi üçün platforma yaratdıqlarına və bu əhəmiyyətli tədbirdə iştirak etmək üçün dəvətə görə forum təşkilatçılarına təşəkkürünü ifadə edib: “Əminəm ki, burada iştirak edənlərin hamısı konstruktiv və məhsuldar dialoqa can atır. Bu, bizə çox lazımdır. Çünki biz burada yerli, milli məsələləri müzakirə ediriksə, deməli, dünyada problemlər hələ də qalır”.

* * *

Fikrimizcə, forumun panel iclaslarında ən yaddaqlan çıxışlardan birini Moldovanın sabiq baş naziri Nataliya Qavrilita edib. “Moldovada “dondurulmuş” münaqişə tezliklə həll edilə bilər” – deyən Na.Qavrilitanın sözlərinə görə, münaqişə heç də Moldovada insanlar arasında getmir: “Çünki Dnestr çayının iki sahilində yaşayan insanlarının bir-biri ilə əlaqələri var. Amma münaqişənin həlli üçün böyük güclər bizə dəstək olmalıdır”.

Bunun ardınca siyasətçi onu da vurğulayıb ki, münaqişə qurtarandan sonra investisiyalar, dövlət-özəl tərəfdaşlığı haqqında düşünmək lazımdır. O, həmçinin çıxışında Rusiyanın Moldovadan qoşunlarını çıxarmaqla bağlı beynəlxalq öhdəlik götürdüyünü, lakin buna əməl etmədiyini iştitakçıların diqqətinə çatdırıb. Yəni çıxışların əsasən yerli problemlərdən bəhs edildiyini nəzərə alsaq, budəfəki forumu milli problemləri beynəlxalq gündəmə daşıyan forum adlandıra bilərik. Latviyanın keçmiş müdafiə naziri Artis Pabriks isə çıxışında kiçik və inkişaf etməkdə olan ölkələrin maraqlarının nəzərə alınacağı ədalətli dünya nizamına çağırış edib: “Ədalətli və davamlı sülhə nail olmaq lazımdır, çünki fövqəldövlətlər öz güclərinə baxmayaraq, mütləq hakimiyyətə malik deyillər”. Onun sözlərinə görə, kiçik dövlətlər ədalətli dünya nizamı naminə ittifaqlara qoşulmağa hazırdır: “Böhrandan sonra siyasi mənzərə mütləq dəyişəcək və bu, qanunun aliliyinə və böyük dövlətlərin kiçik dövlətlərə hörmət etdiyi bir dünyaya əsaslanmalıdır”.

“Dəyişən dünyada ənənəvi dəyərlər pozulur, məhv edilir”. Bunu isə Azərbaycan Xarici işlər nazirinin müavini Elnur Məmmədov Bakı Forumunun ikinci günündə baş tutan “Yeni dünya düzənində orta güclər” adlı panel sessiyada çıxış edərkən deyib. Onun sözlərinə görə, bu gün dünyada BMT-nin Nizamnaməsinə uyğun gəlməyən hallar müşahidə olunur: “Azərbaycan uzun illər Ermənistanın hərbi təcavüzündən əziyyət çəkib. Biz Türk Dövlətləri Təşkilatını qurmuşuq. Bu təşkilat ildən-ilə güclənir. Qoşulmama Hərəkatı aparıcı platforma kimi çıxış edir. Bu hərəkat BMT-dən sonra ikinci böyük təşkilat hesab olunur. Dünyada isə münaqişələr səngimək bilmir. Belə bir vaxtda Azərbaycan aktiv diplomatik təşəbbüslər nümayiş etdirir”.

Nazir müavini çıxışında, həmçinin ölkələrin müstəqil qərar qəbul etmək iqtidarında olmasını vacib amil saydığını önə çəkib: “Ölkələr milli maraqlarını üstün tutmalıdır. Həmçinin iqtisadi müstəqillik olmadan özünüzü müdafiə edə bilməzsiniz. Əgər dünyada öz yerinizi müəyyən etmək istəyirsinizsə, birmənalı olaraq güclü iqtisadiyyatınız olmalıdır”.

XII Qlobal Bakı Forumunun maraqlı, bir çox hallarda narahat çıxışlarla 13 illik tarixini yeni səhifə ilə zənginləşdirdiyinə əminik. Ona da şübhəmiz yoxdur ki, Bakıda gördükləri, ümumiyyətlə, ölkəmiz barədə aldıqları təəssürat uzun müddət forum iştirakçılarının yaddaşında xoş xatirə olaraq qalacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Belçikalı deputat Menendesin aqibətindən nəticə çıxarmalıdır



(əvvəli 1-ci səhifədə)

Əvvəla, saxlanılan şəxslərin "hərbi əsir" adlandırılması heç bir halda doğru sayıla bilməz. Azərbaycan tərəfi İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri zamanı saxlanılan bütün şəxsləri xoş məram nümayiş etdirərək geri qaytarıb. Bu istiqamətdə iki ölkə arasında müharibədən sonra bir neçə dəfə mübadilə həyata keçirilib. Sonuncu dəfə bu istiqamətdə 2023-cü il dekabrın 7-də Azərbaycan Prezidentinin Administrasiyası və Ermənistan baş nazirinin aparatı arasında aparılmış danışıqlar nəticəsində razılıq əldə edilmişdi. Həmin vaxt Azərbaycan humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq 32 erməni hərbçini, Ermənistan isə 2 azərbaycanlı hərbçini azad etmişdi. Bu baxımdan saxlanılan şəxslərlə bağlı "hərbi əsir" ifadəsi kökündən yanlış və qəbulolunmazdır.

Hazırda məhkəmə prosesi keçirilən şəxslər isə konkret cinayət əməllərinin törədilməsində ittiham olunurlar. Əlbəttə, saxlanılan şəxslərin digər hüquqları ilə yanaşı, təqsirsizlik prezumpsiyası da qorunur. Bu səbəbdən məhkəmənin qanuni qüvvəyə minməmiş hökmü olmadan onları cinayətkar, cani və sair adlarla adlandırmaq doğru olmazdı.

Belçikalı deputatın ədalət mühakiməsini "saxta məhkəmə" adlandırmasına gəldikdə isə qeyd etmək lazımdır ki, onlar



üzərində açıq məhkəmə prosesi 2025-ci il yanvarın 17-də Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı qondarma "dqr" və keçmiş rejimin qanunsuz silahlı birləşmələri tərəfindən ölkəmizə və xalqımıza qarşı sülh və insanlıq əleyhinə və müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə başlayıb. Bu proses, ilk növbədə, Ermənistanın işğalçı, təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və digər qanunsuz əməllərinin məhkəmə yolu ilə təsbit olunmasına xidmət edəcək.

Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində keçirilən iclaslarda təqsirləndirilən şəxslər erməni dilində tərcüməçilərlə, habelə müdafiə üçün vəkillərlə təmin ediliblər. Prosesdə əvvəlcə tərcüməçilər elan olunub, onlara qanunvericiliyin tələbləri, o cümlədən hüquq və vəzifələri izah edilməklə, təqsirləndirilən şəxslərin tərcüməçilərə, habelə proses iştirakçılarının məhkəmə tərkibinə, bir-birinə etirazlarının olub-olmaması dəqiqləşdirilib. Cinayət işi üzrə 531 mindən çox zərərçəkmiş və onların nümayəndələri var. İlk iclasda çıxış edən hakim qeyd edib ki, təqsirləndirilən şəxslərin hüquq və vəzifələri onlara erməni dilində izah olunub. Bununla yanaşı, məhkəmə iclası zamanı da onların hüquq və vəzifələri bir daha izah edilib. Bu mənada ədalət mühakiməsini şübhə altına almaq ölkəmizin ədliyyə sisteminə qara yaxmaq kampaniyasının tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Mişel de Maeqdin mühakimə olunan şəxslərin həyatları üçün təhlükənin mövcud olmasına dair iddiası da ağ yalandır. Hər birimiz məhkəmə prosesi keçirilən şəxslərin sağlamlıq durumunun qaydasında olduğunu fotolardan və videogörüntülərdən aydın şəkildə görə bilirik. Belə olan təqdirdə belçikalı deputatın iddiası onun proseslərə qara eynək arxasından baxmasının nəticəsi kimi qiymətləndirilə bilər. Hətta, bununla bağlı keçmiş qondarma rejimin başçılarından olmuş Arayik Arutyunyan da öz fikirlərini bildirib. O, yanvarın 21-də keçirilən növbəti məhkəmə prosesi zamanı deyib ki, sağlamlıqla bağlı problem olduqda təcridxanada həll olunur. Arutyunyan digər təqsirləndirilənlərdən fərqli olaraq, ev dustaqlığına buraxılması barədə vəkili və ya özü tərəfindən vəsatət verilmədiyini, eləcə də səhhəti ilə bağlı şikayətinin olmadığını qeyd edib: "Ümumiyyətlə, digər təqsirləndirilən şəxslərdən sağlamlıqları ilə bağlı şikayət eşitməmişəm".

Yaxud, təqsirləndirilən şəxs Ruben Vardanyanın bir neçə gün öncə – konkret olaraq martın 12-də yaxınlarına göndərdiyi səsli mesajda dediklərinə diqqət yetirək. Vardanyan deyir: "Bu gün martın 12-sidir. Vəziyyətim əladır. Narahat olmayın, hər şey yaxşıdır. Nə etdiyimi, niyə etdiyimi başa düşürəm, dəstəyiniz və hissləriniz üçün hər kəsə təşəkkür edirəm". Beləliklə, belçikalı deputatın məhkəmə prosesi keçirilən şəxslərin həyatları üçün təhlükənin mövcud olmasına dair fikri daha bir yalançılıq və böhtan atmaq nümunəsi hesab olunmalıdır.

Qeyd edək ki, Mişel de Maeqd Belçikanın xarici işlər nazirinə müraciət edərək Azərbaycanın bütün beynəlxalq və humanitar hüquqa məhəl qoymadığını iddia edib. O, müraciətində yaxın tarixdə hamının gözü qarşısında baş vermiş hadisələri həyasızcasına təhrif edib: "Cənab nazir, təsəvvür edin ki, bir gün Belçika, beynəlxalq və humanitar hüquqa məhəl qoymayan, bütün belçikalıları digər ölkəyə qaçmağa məcbur edən qonşu dövlət tərəfindən işğal (?) edilir. Bu arada onlar sizi oğurlayır, xarici işlər naziri vəzifəsini ələ keçirir, sizi aylarla həbsdə saxlayır, işgəncələr verir (?) və heç danışmadığınız dildə sizi saxta məhkəmədə mühakimə edir, absurd qərəzlə ittiham edirlər. Əziz həmkarlar, deyəcəksiniz ki, inanılmaz ssenaridir. Lakin, cənab nazir, indi həmkarınızın (?) başına gələn budur". Bundan sonra belçikalı deputat hazırda mühakimə edilən qondarma rejimdə "xarici işlər naziri" olmuş David Babayanla bağlı danışıb.

Göründüyü kimi, milliyyətcə flamand olan deputat burada etnik separatizmə və qanlı işğalçılıq siyasətinə açıq-aşkar haqq qazandırır. O, uzun illər ərzində beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasından əziyyət çəkən, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirlməsini daim qaldıran, sonda bunu təkbaşına icra etmək məcburiyyətində olan işğala məruz qalmış ölkə ilə işğalçı arasında bərabərlik işarəsi qoyur. Nəinki, bərabərlik işarəsi qoyur, hətta, işğalçıya haqq qazandırır. Onun xüsusi olaraq adını çəkdiyi D.Babayana gəldikdə isə son "vəzifəsi" "dqr prezidentinin müşaviri" olan bu şəxs 2023-cü il martın 10-da BBC-yə verdiyi müsahibəsində deyirdi ki, Azərbaycanın tərkibində olmaq istəmirik, yaxşı qonşu olmaq (?) istəyirik. O, həmçinin başından böyük danışaraq Azərbaycan Bayrağının Qarabağda ucalmasından ötrü ölkəmizi Xankəndidə səfirlik açmağa çağırmışdı.

Zənnimizcə, Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 15-də Xankəndinin mərkəzindəki Zəfər meydanından xalqa müraciətində bu istiqamətdə səsləndirdiyi fikirlərini xatırlatmaq yerinə düşər: "Özünü "prezident" adlandırmış üç təlxək bax, bu binada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə hər şeyə təmkinlə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il. Üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı. Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın".

Belçikalı deputatın "Bütün əlamətlər Bakının Ermənistana qarşı yeni müharibəyə hazırlaşdığını göstərir. Azərbaycan hava limanları İsraildən külli miqdarda silahla dolu təyyarələr qəbul edir. İndi hərəkətə keçməyi təxirə salmağa və ya "yumşaq" diplomatiya ilə məşğul olmağa vaxt yoxdur" kimi fikirlərini isə Azərbaycana deyil, Ermənistana yönəltmək lazımdır. Çünki baş verən bir çox hadisələr, əlamətlər göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Onları yenidən müharibəyə sürükləyən isə Fransa və onun prezidentidir. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Prezident İlham Əliyevin də bildirdiyi kimi, bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan "Avropa monitorinq missiyası" gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin "monitorinq missiyası" barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropa Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün İrəvana verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür.

Onu da bildirək ki, belçikalı deputat Mişel de Maeqd bir müddət öncə korrupsiya cinayətlərinə görə həbs edilərək azadlıqdan məhrum edilmiş məşhur ermənipərəst senator Robert Menendesin aqibətindən nəticə çıxarmalıdır. Ancaq Menendes kimi rüşvətxor amerikalı siyasətçilər siyahıda hələ sonuncu deyil. Digərləri də var ki, ermənilərin pullarına "yerikləyirlər". Bunlar Adam Şiff, COP29-un keçirildiyi günlərdə Bakıdan qovulmuş Frenk Pallone, eləcə də Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosi və digərləridir. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və ölkəmizi gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından tapşırıq alıblar. İndi isə bu rüşvətxorluq əməllərinə görə cavab verirlər. Zənnimizcə, Mişel de Maeqd Menendesin aqibətindən nəticə çıxarmalıdır.

*Səxavət HƏMİD*
*XQ*

# *Ararat Mirzoyan:* Əgər indiki bataqlıqda qalsaq, məhv olacağıq

**"Ermənistanın dövləti kimi mövcud olması üçün sülh yeganə şərtdir". Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib. Onun sözlərinə görə, istənilən sülh müqaviləsi müharibədən sonra imzalanır, şübhəsiz bu sənəd bütün problemləri dərhal həll etmir: "Dost ölkələr arasında sülh müqaviləsi deyil, tərəfdaşlıq inkişaf etdirilir. Bizim münasibətlərə gəldikdə isə məlum olduğu kimi, uzun illər davam edən düşmənçilik və müharibə olub".**

Mirzoyan bildirib ki, heç bir sülh müqaviləsi ilə müharibə etmiş xalqlar dərhal dost ola bilməz: "Ermənistan və Azərbaycan arasında imzalanmağa hazır olan sülh müqaviləsi bu baxımdan istisna deyil. Təbii ki, müqavilədə həlli müzakirələr tələb edən həssas məsələlər var və bunlar zamanla nizama salınmalıdır. Ermənistan və Azərbaycan arasında imzalanmağa hazır olan sülh müqaviləsi də bu baxımdan istisna deyil. Lakin qeyd etmək vacibdir



ki, sənəddə gələcək problemlərin həlli və münasibətlərin tam normallaşdırılması üçün mexanizmlər nəzərdə tutulub. İrəvan və Bakı bundan problemləri həll etmək və nəhayət, münasibətləri nizamlamaq üçün istifadə edə bilər. Qarşıda böyük və zəhmətli iş durur".

Nazir qeyd edib ki, Ermənistan sülh müqaviləsini imzalamağa hazırdır: "Bakı ilə münasibətlərin normallaşması İrəvanın maraqlarına uyğundur. Sülhün təmin olunması geniş və mürəkkəb bir prosesdir. Müqaviləni imzalamaqla Ermənistan böyük bir bataqlıqdan çıxacaq. Əgər o bataqlıqda qalsaq, məhv olacağıq".

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra vasitəçilik formatına, xüsusən də ATƏT-in Minsk qrupuna ehtiyac qalmayacaq. "Sülh müqaviləsi imzalandıqdan sonra institusional baxımdan münaqişə başa çatmış olacaq. Bununla da vasitəçilik formatına ehtiyac qalmayacaq. Həm də Ermənistan və Azərbaycan beynəlxalq iddialarını eyni vaxtda geri götürəcəklər".

Mirzoyan onu da əlavə edib ki, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin mətni artıq razılaşdırılıb və Ermənistan "müqavilənin yeri, vaxtı və digər təfərrüatlarını razılaşdırmaq" üçün mümkün qədər tez Azərbaycanla məsləhətləşmələrə hazırdır.

Qeyd edək ki, bir neçə gün əvvəl Ermənistan baş naziri Nikol Paşinyan da Minsk qrupunun buraxıla biləcəyini bəyan edib.

İki ölkə arasında sülh müqaviləsi imzalananadək həlli vacib məsələlərdən biri Ermənistan konstitusiyası ilə bağlıdır. Bu, sülh müqaviləsindən kənar razılışdırılmayan çox ciddi məsələdir. Hayastanın ana qanununda müvafiq dəyişikliklər edilmədən sülh müqaviləsinin imzalanması mümkün deyil. Çünki bu konstitusiyada Azərbaycana qarşı ərazi iddiaları var. Daha doğrusu, bu sənəddə Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı müddəanın yer aldığı Müstəqillik bəyannaməsinə istinad olunub. Bildirək ki, Ermənistan Respublikasının Müstəqillik bəyannaməsi 1990-cı il avqustun 23-də Ermənistan Ali Sovetinin birinci sessiyasında qəbul edilib.

Ermənistanda bir neçə dəfə konstitusiya dəyişikliyi olsa da, Qarabağın Ermənistana birləşdirilməsi müddəasının yer aldığı Müstəqillik bəyannamasinə istinad edilən maddələr dəyişdirilməyib.

Əgər Ermənistan, həqiqətən də, qonşuları ilə normal əlaqələr qurmaq istəyirsə, qanunvericiliyində ərazi iddiaları ilə bağlı olan maddələr çıxarılmalıdır. Deməli, hüquqi problemlərin yaranmaması üçün yeni konstitusiya qəbul edilməlidir. Bakı dəfələrlə bildirib ki, davamlı sülhə gedən yol boş bəyanatlardan deyil, təhdidlərin aradan qaldırılmasından keçir. Əgər Ermənistan həqiqətən də sülh imzalamaqda səmimidirsə, münasibətləri birdəfəlik olaraq normallaşdırmaq istəyirsə, buna maneə yaradan bütün maneələri aradan qaldırmalıdır. Bunun başqa yolu yoxdur. Bəs bu barədə Mirzoyan nə deyib?

Ermənistanın XİN rəhbəri bildirib: "Biz Azərbaycanın Ermənistan konstitusiyası ilə bağlı şərhini eşitmişik. Təbii ki, razılaşdırılmış mətndə bu barədə heç nə yoxdur... Məlumdur ki, bizim də öz növbəmizdə Azərbaycan Konstitusiyası ilə bağlı narahatlıqlarımız var. Orada Ermənistana qarşı müəyyən ərazi iddialarını görürük. Lakin o da məlumdur ki, müqavilənin mətnində bu cür narahatlıqları aradan qaldıran müəyyən müddəalar var. Tərəflər sülh sazişinin mətnində bir-birinin ərazi bütövlüyünü qarşılıqlı tanıyırlar, lakin kvadrat kilometrdən bəhs edilmir".

Mirzoyan daha sonra deyib ki, delimitasiya komissiyalarının əsasnamələrinin ratifikasiyası ilə bağlı Konstitusiya Məhkəməsinin qərarı bütün narahatlıqları aradan qaldırır: "Amma nəzəri cəhətdən konstitusiyalarda belə iddialar olsa da, müqavilənin imzalanması və ratifikasiyası bu məsələləri aradan qaldırır".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin əməkdaşı Mətin Məmmədli**



XQ-yə bildirdi ki, Mirzoyan bununla Azərbaycan ilə Ermənistan konstitusiyaları arasında paralellik və bərabərlik yaratmağa cəhd edib: "Amma bu, heç bir nəticə verməyəcək. Çünki Ermənistan konstitusiyasından fərqli olaraq, Azərbaycanın Ana qanununa istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında və 1918-ci il İstiqlal bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur".

Yada salaq ki, Ermənistan hakimiyyəti yeni konstitusiya layihəsini təklif etməyə hazırlaşır. Bu barədə Ermənistan baş naziri Nikol Paşinyan bir qrup vətəndaşla görüşündə məlumat verib. Paşinyan bildirib ki, yeni konstitusiya ilə bağlı təklif etdiyi tezis geniş müzakirə edilib və Azərbaycanın irəli sürdüyü tələbin yerinə yetirilməsi kimi təqdim olunub. Lakin, o qeyd edib ki, "Real Ermənistan" ideologiyası çərçivəsində təklif başqa bir məna daşıyır: "Bu şərtlər altında mövcud ola biləcək mətnin regional əhəmiyyət kəsb etməsini inkar etmək mümkün deyil".

Beləliklə, Ermənistan konstitusiyaya dəyişiklik etməklə ölkəmizə qarşı ərazi iddialarından əl çəkməli, həllini gözləyən problemlər aradan qaldırılmalıdır. Ondan sonra ədalətli sülh müqaviləsi imzalana bilər.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Qadınların fəaliyyətinə qlobal dəstək






**Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu üçüncü günündə işini panel iclaslarla davam etdirib.**

BMT-Macarıstan Assosiasiyasının prezidenti, “Women4Diplomacy” Hərəkatının qurucusu, UNESCO-nun 36-cı sessiyasının prezidenti, Macarıstanın BMT və UNESCO yanındakı sabiq səfiri Katalin Boqyayın moderatorluğu ilə keçirilən sessiya “Gender-Təhlükəsizlik-İqlim bağlantısı” mövzusuna həsr olunub.

Panel sessiyada çıxış edən Latviyanın sabiq Prezidenti (1999-2007), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qeyd edib ki, dünyada baş verən hər bir proses qadınlara təsir edir. Əgər nəyi isə təkmilləşdirmək istəyiriksə, qadınların dəstəyini almalıyıq.

Xüsusilə müharibə və digər fəlakətlərin qadınlara təsir etdiyini söyləyən sabiq Prezident vurğulayıb ki, bu təsir qeyri-mütənasib şəkildə baş verir. O bildirib ki, dünyanın müəyyən bölgələrində coğrafi yerləşmə səbəbindən insanlar risk altında yaşayırlar. Lakin qadınlar bu risklərə daha çox məruz qalırlar. “Qida məhsullarının çatışmazlığı da qadınlara daha çox təsir edir. Kənd təsərrüfatı sahəsində çalışan qadınlar daha kasıbdır və onlar su çatışmazlığı kimi problemlərlə üzləşirlər. Bu sahədə çalışan qadınlar çox vaxt məcbur olub suya görə uzaq məsafələr qət edirlər. Bu zaman isə daha böyük təhlükələrlə üz-üzə qalırlar”, - deyə o əlavə edib.

Vike-Freyberqa vurğulayıb ki, bu məsələlərlə bağlı maarifləndirmə kampaniyaları daha geniş və intensiv olmalıdır: “Cəmiyyətə izah etməliyik ki, bu, sadəcə şüar deyil – biz real təsirlərə nail olmaq üçün çalışırıq”.

Yunanıstanın sabiq Baş naziri (2009-2011) George Papandreu qeyd edib ki, qadınlar maddi vəsaiti kişilərə nisbətən daha konstruktiv və məhsuldar şəkildə istifadə edə bilirlər. “Ekoloji təsirlər dünyada qeyri-mütənasib şəkildə qadınlara və digər qruplara təsir edir. Onlar bəzən cəmiyyətdə zəif mövqedə olurlar və bu vəziyyət daha da ağırlaşır. Buna görə də qlobal səviyyədə yalnız qadınların bu sahələrdə iştirakını təmin edən tədbirlərin deyil, eyni zamanda, onların fəaliyyətini dəstəkləyən xüsusi tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Çünki çox vaxt məhz qadınlar icmaları təhsil və təlim vasitəsilə bir arada saxlayan əsas qüvvə rolunu oynayırlar”, - deyə o əlavə edib.

Misirin İnsan Hüquqları üzrə Milli Şurasının prezidenti, Kemet Butros Ghali Sülh və Bilik Fondunun icraçı prezidenti, 2009-2011-ci illərdə Misirin ailə və əhali naziri olmuş Muşirə Xəttab deyib ki, Təhlükəsizlik Şurasının “Qadınlar, Sülh və Təhlükəsizlik” gündəliyi mövcuddur. Məhz indi Təhlükəsizlik Şurasının fəaliyyət planının ciddi şəkildə həyata keçirməsinin vaxtıdır. Bu fəaliyyət planı çərçivəsində Yaxın Şərqdə, Avropada və digər regionlarda qadınların rolu müzakirə edilə bilər.

O, daha sonra qeyd edib: “İqlim böhranı həqiqətən mövcudluğumuza təhdiddir və qadınlar bu problemdən ən çox əziyyət çəkənlər arasındadırlar – yalnız vətəndaş olaraq deyil, eyni zamanda, qadın, ana və fərd kimi”.

Liviyanın Avropa İttifaqındakı sabiq səfiri, şahzadə Talal bin Əbdüləziz Əl Səudun baş müşaviri Farida Allaqi bildirib ki, hazırda dünyada dəhşətli münaqişələr yaşanır. Minlərlə qadın silahlı münaqişə şəraitində yaşamağa məcburdur və bu, olduqca qorxuncdur. “Qəti şəkildə inanıram ki, bu gün bizə söz yox, fəaliyyət lazımdır. Qadınlara, uşaqlara və kimsəsizlərə yardım etməli, həmçinin yeni nəsil fəal qadın və kişilər yetişdirməliyik”, – deyə o vurğulayıb.

Panel iclası müzakirələrlə davam edib.

***XQ***

# Süni intellekt və real həllər tibbi xidmətlərə çıxışı genişləndirə bilər




**UNESCO-nun Rasizmə Qarşı Şəhərlərin Koalisiyası təşkilatının rəhbəri Benedetto Zaçirolinin moderatorluğu ilə keçirilən sessiya "Qlobal səhiyyə böhranda: Hazırlılıq və bərabərlikdə yeni cəbhələr" mövzusuna həsr olunub.**

Panel sessiyada çıxış edən Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev səhiyyə sənayesinin texnoloji irəliləyişlərin, məlumatlara əsaslanan qərarların qəbulu və fərdiləşdirilmiş tibbin birləşməsi ilə formalaşacağını bildirib. O, süni intellekt və real həllərin ən mühüm töhfələrindən birinin ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi yolu ilə tibbi xidmətlərə çıxışın genişləndirilməsi olacağını diqqətə çatdırıb.

Nazir bildirib ki, pandemiya və xəstəliklərin yayılması kimi qlobal səhiyyə böhranı dağıdıcıdır. Eyni zamanda, müsbət dəyişikliklər üçün imkanlar yaradılır. Bu böhranlar vaksinlərdə, müalicə üsullarında və tibbi texnologiyalarda təcili yeniliklərə təkan verir.

Böyük Britaniyanın Lordlar Palatasının üzvü Suzan Qrinfild çıxışında rəqəmsal transformasiyanın dünyada baş verən dəyişikliklərə uyğun olaraq insan beyninə təsir göstərdiyini söyləyib. Qeyd edib ki, dünyada baş verən hadisələr müsbət məcrada gedirsə, insan beyni buna köklənir, lakin neqativ tendensiyalar beynin qavrama və analiz etmə funksiyalarına mənfi təsir edə bilər.

Qrinfild, həmçinin rəqəmsal texnologiyaların inkişafı ilə paralel olaraq beynin sağlamlığına yönəlmiş elmi araşdırmaların və maarifləndirmə tədbirlərinin vacibliyini də vurğulayıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının sabiq vitse-prezidenti İsmail Serageldin deyib ki, inkişafın istiqamətləri bu gün düşünülməli, həm də qidalanma məsələsi təşviq edilməlidir. Düzgün qidalanma xüsusilə ucqar rayonlarda yaşayan yoxsul analar üçün vacibdir. İlk növbədə, onlar tam çəkiyə uyğun körpələr həyata gətirəcək. İkincisi, həmin körpələr ana südü ilə qidalana biləcəklər.

“Bütün bunlar çox vacibdir. Problemlərin ilk təzahürləri məhz buradadır. Bu gün teletibb və süni intellektlə keçmiş illərdə mümkün olmayan rabitə şəbəkələrinə çatmaq imkanımız var”, - deyə İsmail Serageldin əlavə edib.



Moldovanın sabiq Baş naziri Çiril Qaburici bildirib ki, kiçik və ya kasıb ölkələr maliyyə vəsaiti əldə etməkdə çətinlik çəkirlər. Məlumatların paylanması bərabər deyil və çoxlu problemlər var. O, səhiyyə siyasəti, düzgün protokollar, səhiyyə xidmətlərinə çıxış və onların saxlanılması baxımından əlavə işlər görülməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, eyni zamanda, dövlət qurumları da ictimaiyyətə lazımi dəstəyi verməlidir.

İsrailin sabiq Prezidenti, Knessetin keçmiş sədri (2006-2009), Hadassah Tibb Təşkilatının İdarə Heyətinin sədri Daliya İtzik qlobal səhiyyə məsələsinin son dərəcə vacib olduğunu bildirib. Qeyd edib ki, dünya pandemiyalar, iqlim dəyişikliyi və müxtəlif səhiyyə siyasətlərinin tətbiqi fonunda bu cür problemlərlə üzləşməyə davam edir.

“Mən birlikdə fəaliyyət göstərməyin çox vacib olduğunu düşünürəm. Xristian, müsəlman, yəhudi – hər kəs eyni vaxtda eyni müalicəni ala bilər. Nə qədər çox əməkdaşlıq etsək, işimiz dünyaya gözəl bir mesaj olacaq”, - deyə Daliya İtzik əlavə edib.

Qlobal Əməkdaşlıq Forumunun prezidenti və CEO-su Amir Dossal Azərbaycanın səhiyyə sektorunda gördüyü işlər, süni intellekt sahəsindəki nailiyyətləri barədə məlumat aldığını, ölkəmizdə bu sahədə görülən tədbirlərin təqdirəlayiq olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycan bu sahədə digər ölkələrə kömək edə bilər.

“Hazırda 700 milyon insan qidalanma çatışmazlığından əziyyət çəkir. Biz bunun qarşısının alınması məsələsini yetərincə müzakirə etmirik. Düşünürəm ki, səhiyyənin milli mülkiyyətə çevrilməsi ilə biz bu problemin qarşısının alınması imkanlarını daha da artırırıq”, - deyə Amir Dossal diqqətə çatdırıb.

Hadassah Tibb Təşkilatının Baş direktoru Yoram Veiss bildirib ki, dünyada təkcə demoqrafik dəyişikliklər getmir, həmçinin elm də dəyişir. Elm həm də epidemiyanın baş verməsi, yeni bir pandemiya ehtimalı yaradır və hər kəs bunun fərqində olmalıdır.

“Bununla yanaşı, antimikroblardan istifadə çox problemlidir. Ona görə də bu məsələnin fərqində olmalıyıq”, - deyə Y.Veiss vurğulayıb.

Sessiya müzakirələrlə davam edib.

***XQ***

# Çağdaş dünya üçün yeni texnologiyalar

**Bakı Forumunun üçüncü günündə “Yeni dünya üçün yeni texnologiyalar” mövzusunda daha bir panel iclası keçirilib.**




ABŞ-ın Alman Marşal Fondunun və Annenberq Siyasət Mərkəzinin eksperti Susan Nessin moderatorluğu ilə keçirilən paneldə Beynəlxalq Telekommunikasiya İttifaqının Baş direktorunun müavini Tomas Lamanauskas, Oksford Universitetində Süni İntellekti İdarəetmə Təşəbbüsünün baş məsləhətçisi Sam Davs, Yunanıstanın sabiq Baş naziri (2009-2011) George Papandreu, Birləşmiş Millətlər Təşkilatının Baş Qərargahında İnformasiya və Kommunikasiya Texnologiyaları Ofisinin İT mütəxəssisi, Baş katibin köməkçisi Bernardo Mariano, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev, Monteneqronun sabiq müdafiə naziri Miliça Pejanoviç, Şanxay Əməkdaşlıq Təşkilatının keçmiş Baş katibi, Özbəkistanın sabiq xarici işlər naziri Vladimir Norov, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov iştirak ediblər.

Beynəlxalq Telekommunikasiya İttifaqının Baş direktorunun müavini Tomas Lamanauskas çıxışında qeyd edib ki, yeni texnologiyaların tətbiqi prioritetdir. Lakin onların yaratdığı təhlükələri aradan qaldırmaq üçün də çox çalışmaq lazımdır. “Hazırda dünyada bütün sahələr üzrə süni intellekt texnologiyalarının yalnız 45 faizi tətbiq olunur, 25 faizi isə yoxlanılma mərhələsindədir. İşçi heyətə gəldikdə, qadınlar onun yalnız 20 faizini təşkil edir. Bu müzakirələrə hazırlaşanda biz idarəçilik sahəsində və təhlükəsizlik baxımından hansı məsələlərin vacib olduğu barədə danışdıq. Məlum oldu ki, Afrikada emal mərkəzinə cəmi 2 faiz məlumat göndərilir. Qeyd etmək lazımdır ki, BMT bu sahədə müxtəlif təşəbbüslər irəli sürüb, bura təhlükəsizlik, monitorinq və digərləri daxildir. Ötən il biz BMT sistemində 50-dək mexanizm hazırlamışıq. UNESCO-nun hazırladığı Etik davranış mexanizmini də xüsusi vurğulamaq istərdim. Bu baxımdan, süni zəka ilə bağlı BMT-nin Baş katibinin çağırışını xüsusi qeyd etmək istəyirəm.

Düşünürəm ki, süni zəkanın bütün dünyada tətbiqi üçün qlobal mərkəzlər yaradılmalı, qanunvericilik təkmilləşdirilməli, insanların bacarıqları inkişaf etdirilməlidir. Dünya ölkələrinin yalnız 5 faizinin süni zəka sahəsində bacarıqlı kadrları var. Biz süni zəka sahəsində bacarıqlı kadrların sayının artırılması üçün 100-dən çox ölkəni bir araya gətirib, qlobal tədris mərkəzləri yaratmışıq”, - deyə Tomas Lamanauskas əlavə edib.

Oksford Universitetində Süni İntellekti İdarəetmə Təşəbbüsünün baş məsləhətçisi Sam Davs süni zəka texnologiyalarının diqqətdə saxlanılmasının vacibliyini qeyd edərək, dövlətlər arasında geosiyasi rəqabətin olduğunu deyib. “Hər kəs texnologiyada olan yenilikləri öz ölkəsində tətbiq etmək istəyir. Bununla bağlı müxtəlif ölkələr təlimlər keçirir”, - deyə Sam Davs diqqətə çatdırıb.

Çində texnologiyalarla bağlı tənzimləyici qaydaların qüvvəyə mindiyini vurğulayan baş məsləhətçi süni zəkanın parçalanmaya gətirib çıxarma ehtimalını da istisna etməyib.

Yunanıstanın sabiq Baş naziri George Papandreu bildirib ki, texnologiya təhsil, iqlim dəyişikliyi kimi problemlər üçün yox, kütləvi qırğın silahlarının hazırlanması üçün daha çox istifadə olunur. Sabiq Baş nazir bunun nəzarətdən kənarda qaldığını, süni zəkanın ABŞ və Çin kimi iri dövlətlərin əlində olduğunu bildirib.

“Təhsildə, iqlim dəyişikliyində bu texnologiyalar çox vacibdir. Süni zəkanın demokratiya üçün necə istifadə edilməsini düşünməliyik, çünki texnologiyalar bəşəriyyətə xidmət etməlidir”, - deyə o vurğulayıb.

BMT-nin nümayəndəsi Bernardo Mariano qeyd edib ki, süni zəka üzərində təxminən 60 il araşdırma aparılıb və ChatGPT yaranıb. “Onun inkişafı bizi hazırda çox təəccübləndirir. Hökumətlər süni zəka ilə bağlı problemləri həll etməlidirlər. Süni zəkanın pozitiv tərəfləri kimi, neqativ və qaranlıq tərəfləri də var. Süni zəka hazırda fərdlər tərəfindən idarə olunur. Bu, əvvəllər heç vaxt görünməyib. Burada dövlətlərdən çox fərdlər irəli çıxır. BMT hökumətlərə mövcud problemlərlə yanaşı, yeni ortaya çıxmış texnologiyaların yaratdığı problemləri aradan qaldırmaq üçün dəstək göstərməlidir”, - deyə o əlavə edib.

Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev vurğulayıb ki, XII Qlobal Bakı Forumunda texnologiyaların etik şəkildə istifadəsi müzakirə olunan ən vacib məsələlərdəndir. Yeni texnologiyalar, həmçinin süni zəka elmə və insanlara xidmət etməli, bəşəriyyətə yalnız fayda verməlidir.

Monteneqronun sabiq müdafiə naziri Miliça Pejanoviç çıxışında qeyd edib ki, süni texnologiyalar lazım olan sahələrə dəyər qatmalıdır. Bu sahədə dünya liderlərin rolu hələ də məlum deyil.

İnnovasiyaların inkişafı üçün əlverişli məkanın vacibliyini vurğulayan Miliça Pejanoviç süni zəkanın mənfi məcrada dəyişilməsinə diqqət yetirməyin önəmindən söz açıb.

Şanxay Əməkdaşlıq Təşkilatının keçmiş baş katibi, Özbəkistanın sabiq xarici işlər naziri Vladimir Norov bu gün texnologiyaların gündəlik həyatımızı formalaşdırdığını, həmçinin siyasi sahəyə də təsir göstərdiyini deyib: “Bu, həm də insan həyatının məxfiliyinə təsir göstərir. Burada hərtərəfli yanaşma olmalıdır”. O, böyük texnoloji şirkətlərin etik davranışı qazancdan daha üstün tutduğunu qeyd edib.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov isə bildirib ki, Azərbaycanda Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiya hazırlanıb. “Bizim üçün vətəndaşların rəqəmsal biliklərinin artırılması çox vacibdir. İnsanların süni zəkadan faydalanması üçün Azərbaycanda çox unikal sistem yaratmışıq. Hazırda biz 4SİM olaraq, İqtisadiyyat Nazirliyi və Vergi Xidmətinin “Çağrı mərkəzi”ndə zənglərin araşdırılması üçün məhz süni zəkanın tətbiqi üzərində işləyirik. Bir sıra sahələrdə Azərbaycanda artıq süni zəka tətbiq olunur. Vətəndaşların üzünün tanınması proqramını istifadəyə vermişik. Hazırda milyona yaxın vətəndaş bu proqramdan istifadə edir”, - deyə Fariz Cəfərov diqqətə çatdırıb.

Panel iclası müzakirələrlə davam edib.

***XQ***

# Gənclərə geniş meydan verək



**Bakı Forumunun sonuncu günündə 11-ci panel iclası “Gənclər danışsın, biz dinləyək” mövzusuna həsr olunub.**

Panel iclasına Qlobal Siyasət İnstitutunda tədqiqatçı və Lafiya Nigeriya Fondunun təsisçisi Klaudia Marta Xmielovska moderatorluq edib.

Paneldə çıxış edən Harvard Biznes Məktəbində MBA tələbəsi və “Terran Paragon” təşkilatının qurucusu və icraçı direktoru Uilliam Uanq bildirib ki, onun təşkilatı qlobal istedadı inkişaf etməkdə olan ölkələrlə birləşdirmək, bilik mübadiləsini təşviq etmək və XXI əsrin bilik iqtisadiyyatını qabaqcıl şirkətlər və dövlət qurumları ilə strateji tərəfdaşlıqlar vasitəsilə irəlilətmək məqsədini güdür: “Bizim şirkətimiz gənclərə kömək edir, çünki gələcəkdə onlar liderlər olacaqlar. Biz gənclərə hər sahədə kömək etməyə hazırıq”. O, həmçinin özünün iş və təhsil təcrübəsini bölüşüb.

“De Jong Capital”da Baş ofis rəhbəri (Managing Partner Büro rəhbəri) Paskal Rathle təmsil etdiyi şirkətin strategiyası və fəaliyyəti haqqında məlumat verib.

“ABŞ-da bir şirkətdə baş icraçı direktorun maaşı sıravi işçilərin məvacibindən 40 dəfə çoxdur, bu, nə dərəcədə düzgündür? Belə ədalətsiz gəlir bölgüləri qarşısında gənclərin işlə təmin olunması və öz rifahını yüksəltməsi üçün heç bir motivasiya qalmır. Etikaya sadiqlik, bərabər bölgü məsələləri prioritet olmalıdır”, - deyə o əlavə edib.

“DIFC Authority”də Qrup Strategiyası üzrə köməkçi menecer Milind Taneja bildirib ki, bir çox inkişaf etməkdə olan ölkələrdə dövlət büdcəsinin 50 faizdən çoxu borcların və kreditlərin ödənilməsinə sərf edilir. Bu isə o deməkdir ki, onlar nə evlər tikməyə, nə təmiz enerji keçidləri üçün infrastruktur yaratmağa, nə də əsas səhiyyə xidmətlərini təmin etməyə maliyyə ayıra bilmirlər. “Bu, bizim üçün böyük bir böhrandır. Bu, təkcə iqtisadi problem deyil, həm də kifayət qədər maliyyələşmənin olmaması səbəbindən dayanıqlılıq və davamlı inkişaf üçün yaranan insan böhranıdır. Bu o deməkdir ki, biz maliyyələşdirmə məsələsini həll etmədikcə, çoxlu insanın həyatını təhlükəyə atırıq, onları əsas xidmətlərindən və iqtisadi imkanlardan məhrum edirik və nəticə etibarilə dayanıqlı inkişafla xarakterizə olunan gələcəyə sürətlə çatmağımıza mane oluruq. Beləliklə, bu məsələ çox təcili həll olunmalıdır. Son bir neçə gündə biz bu mövzu ətrafında geniş müzakirələr apardıq”, - deyə Milind Taneja vurğulayıb.

COP29 Gənclər İqlim Çempionu Leyla Həsənova çıxışında iqlim dəyişikliyinin gənclər üçün yaratdığı çağırışlardan danışaraq, onların bu qlobal problemin həllində fəal rol oynaya biləcəyini bildirib.

“Gənclərin ekoloji təşəbbüslərdə iştirakı və innovativ həll yolları tapmaq bacarığı iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynayır.

Davamlı inkişafın təmin olunması üçün gənclərin maarifləndirilməsi və onların qərar qəbuletmə prosesinə cəlb olunması vacibdir”, - deyə Leyla Həsənova diqqətə çatdırıb.

Digər çıxış edənlər öz ölkələrinin təcrübələrindən və mövcud problemlərdən danışıblar.

***XQ***



## Hökumət hesabat verir

*(əvvəli 1-ci səhifəfə)*



# Sabitlik və islahatlar davamlı inkişafı sürətləndirib

Sosial-iqtisadi inkişafda dövlətin xüsusi rolu, neft sərvətinin dinamik inkişafa səmərəli inteqrasiyası, dövlət investisiyalarının ölkənin suverenliyinin və milli təhlükəsizliyin möhkəmləndirilməsinə, daxili ictimai-siyasi sabitliyin və ictimai konsolidasiyanın təmin edilməsinə yönəldilməsi diqqət mərkəzində saxlanılıb. Bütün bunların məntiqi nəticəsi haqqında Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatında ətraflı bəhs edilib.

Nitqində 2024-cü ilin iqtisadi inkişaf baxımından uğurlu il olduğunu vurğulayan Baş nazir hesabat ilində ölkədə 126,3 milyard manatlıq və ya 2023-cü illə müqayisədə real ifadədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunduğunu bildirib. Natiq, eyni zamanda, ÜDM istehsalının neft-qaz sektorunda 0,3 faiz, qeyri-neft-qaz sektorunda 6,2 faiz, qeyri-neft-qaz sənayesində isə 7,3 faiz artdığını, əhalinin hər nəfərinə düşən ÜDM-in 3,6 faiz çoxalaraq 12,4 min manat təşkil etdiyini diqqətə çatdırıb.

Hesabatda xatırladılan yuxarıdakı göstəricilərlə bərabər, 2024-cü ildə ölkənin xarici ticarət dövriyyəsinin 47,4 milyard ABŞ dollarına çatdığı, müsbət ticarət saldosunun 5,3 milyard dollar olduğu, qeyri-neft ixracının 3,3 milyard dolları üstələdiyi, strateji valyuta ehtiyatlarının 2,5 milyard dollar artaraq 71 milyard dollar təşkil etdiyi vurğulanıb. Eyni zamanda, keçən ilin sonuna xarici dövlət borcu məbləğinin 20,6 faiz azalaraq 5,1 milyard dollar olduğu, illik inflyasiyanın hədəf diapazonu daxilində qərarlaşdığı – 12 aylıq inflyasiyanın 4,9 faiz, orta illik inflyasiyanın isə 2,2 faiz həddində qərarlaşdığı diqqətə çatdırılıb.

Yeri gəlmişkən, bu məqamda Azərbaycanın xarici dövlət borcu məbləğinin azalması ilə bağlı məsələyə nəzər salmaq istərdik. Belə ki, son illərdə ölkədə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya arımı reallaşıb.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırladaraq bildirək ki, respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın “Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə” bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

Yeni dəyişikliyə əsasən, bu ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir.

Azərbaycanın xarici dövlət borcunun azalması bir sıra amillərlə bağlıdır. Bu, ilk növbədə, düşünülmüş uzunmüddətli strategiyanın uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncam – “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya” da bunun bariz ifadəsidir.

Sonda qeyd edək ki, yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatda dövlət büdcəsi gəlirlərinin, təxminən, 37,2 milyard manat, xərclərinin isə 37,7 milyard manat təşkil etdiyi, bu dövrdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 39 faizinin və ya 14,6 milyard manatının sosialyönümlü xərclərin maliyyələşdirilməsinə istiqamətləndirildiyi qeyd edilib. Ölkədə ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və qiymətlərin sabit saxlanılması məqsədilə müvafiq dəstək tədbirlərinin həyata keçirildiyi vurğulanan hesabatda ərzaq təhlükəsizliyinin reallaşdırılması ilə bağlı layihələrin maliyyələşdirilməsi üçün 487,4 milyon manat vəsait ayrıldığı bildirilib.

Hesabat dövründə ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsi istiqamətində həyata keçirilən su ehtiyatlarından səmərəli istifadə edilməsi, fermerlərin suvarma suyu ilə təchiz olunması, suvarma sahələrinin genişləndirilməsi və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üzrə layihələrinin maliyyə təminatına 540 milyon manat vəsait yönəldildiyi də xatırladılıb.

İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin hazırda uğurla davam etdirildiyi vurğulanan hesabatda 2024-cü ilin sonunadək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 10,2 mindən çox keçmiş məcburi köçkünün evlərlə təmin olunduğu, bununla yanaşı, keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin reallaşdırılması məqsədlərinə dövlət büdcəsindən 329 milyon manat yönəldildiyi diqqətə çatdırılıb. Ümumilikdə isə 2021-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən cəmi 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5 milyard 347 milyon manat vəsait ayrılıb.

Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatda, həmçinin qeyd edilib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində bu qədim diyarımızda kənd təsərrüfatı məhsulları istehsalı və emalının inkişafı, elektrik enerjisi istehsalının, ticarətin və sənayenin inkişafı, infrastruktur təminatının yaxşılaşdırılması, nəqliyyat-tranzit potensialının artırılması istiqamətində layihələr həyata keçirilib. Bundan başqa, dövlətimizin başçısının həyata keçirdiyi uğurlu enerji siyasəti nəticəsində son illərdə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində rolu daha da güclənib. Belə ki, təkcə 2024-cü ildə enerji istehsalı 28,4 milyard kVts olub, istehlak həcmi isə 24,2 milyard kVts-a yüksəlib.

Bütün bu yuxarıda sadalanan iqtisadi uğurlar qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədərki mərhələdə ölkəmizin iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolu ilə inamla irəliləyir.

# “Rəqəmsal İpək yolu” Avrasiyanın sehrli körpüsü olacaq

**Müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən çoxşaxəli şirkətlər qrupu olan NEQSOL Holding “Rəqəmsal İpək yolu” layihəsinin mühüm hissəsinin – Transxəzər fiber-optik kabel xəttinin inşası üzrə tender proseslərinin uğurla başa çatdığını və tikintinin birinci mərhələsinin başlandığını elan edib. Şirkətin baş direktoru Yusif Cabbarov mediaya məlumatında sözügedən layihənin Azərbaycanın magistral internet provayderi “AzerTelecom” şirkəti ilə Qazaxıstanın milli telekommunikasiya operatoru “Kazakhtelecom”un tərəfdaşlığı çərçivəsində həyata keçirildiyini bildirib.**

Y. Cabbarovun sözlərinə görə, bu strateji layihə əsasında Xəzər dənizinin dibi ilə 380 kilometr uzunluğunda fiber-optik kabel xətti çəkiləcək. Bu xətt Azərbaycanın Sumqayıt və Qazaxıstanın Aktau şəhərlərini birləşdirəcək, eyni zamanda, yüksəkhəcmli məlumatların ötürülməsini və 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısını təmin edəcək. Nəticədə Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan daxil olmaqla bir sıra ölkələrdən keçən rəqəmsal telekommunikasiya dəhlizi yaradılacaq.

“Rəqəmsal İpək yolu”nun infrastrukturu yüksəksürətli məlumat ötürmə imkanı sayəsində Avropa və Asiya arasında ən optimal və qısa marşrutun yaradılmasını təmin edəcək. Bu, regional əməkdaşlığın güclənməsinə və region ölkələrinin iqtisadi inkişafına töhfə verəcək. Transxəzər kabel xəttinin tikintisi bir neçə mərhələdə həyata keçiriləcək. Bu mərhələlərə sahilyanı ərazilərin və dəniz dibinin qiymətləndirilməsi, yüksək keyfiyyətli və davamlı kabellərin layihələndirilməsi və istehsalı, onların daşınması və quraşdırılması daxil olacaq. İmzalanan öhdəliyə əsasən, tikinti işlərini 2026-cı ilin sonuna qədər “AzerTelecom” və “Kazakhtelecom” şirkətləri tərəfindən yekunlaşdırılacaq.





# “Şirin Xəzər” layihəsi gerçəkləşir

**Bu il İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı pilot layihənin icrasına başlanılacaq.**

Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabata əsasən, layihənin beynəlxalq normalara uyğun dövlət-özəl tərəfdaşlığı kontekstində icrası məqsədilə nüfuzlu beynəlxalq məsləhətçi şirkətlər cəlb edilib və potensial investorlar müəyyənləşdirilib. Layihənin həyata keçirilməsi üçün 29,6 hektar torpaq sahəsi ayrılıb.

Ötən il fevralın 8-də keçirilən müsabiqə nəticəsində İqtisadiyyat Nazirliyinə iddiaçı şirkətlər (“ACWA Power”, “Metito Utilities Limited”, “IDE Water Assets Ltd.”) tərəfindən təkliflər təqdim edilib. Həmin şirkətlərin və aidiyyəti dövlət qurumlarının iştirakı ilə noyabrın 4-də təkliflər paketi açılıb, müvafiq prosedurlara uyğun qeydiyyata alınaraq qiymətləndirmə prosesine başlanılıb.

Prezident İlham Əliyevin “Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında” 12 aprel 2023-cü il tarixli sərəncamına əsaslanılaraq İqtisadiyyat Nazirliyinin rəhbərliyi ilə aidiyyəti qurumların səlahiyyətli nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb.



# 2 ayda elektrik enerjisi istehsalı 3,8 faiz artıb

**Energetika Nazirliyindən XQ-yə verilən məlumata əsasən, cari ilin yanvar–fevral aylarında respublikada elektrik enerjisi istehsalı 3,8 faiz artaraq 4 milyard 865 milyon kilovat-saat olub.**

Həmin müddətdə istilik elektrik stansiyalarında (İES-lərdə) 4 milyard 354 milyon kilovat-saat, su elektrik stansiyalarında (SES-lərdə) 412 milyon kilovat-saat, digər mənbələr üzrə isə 99 milyon kilovat-saat, o cümlədən külək elektrik stansiyalarında (KES-lərdə) 9 milyon kilovat-saat, günəş elektrik stansiyalarında (GES-lərdə) 55 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 38 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə su və günəş elektrik stansiyalarının enerji istehsalında 141 milyon kilovat-saat artım qeydə alınıb.

Hesabat dövründə elektrik enerjisinin istehsalı “AzərEnerji” ASC üzrə 4 milyard 354 milyon kilovat-saat (İES-lərdə 3 milyard 956 milyon kilovat-saat, SES-lərdə 398 milyon kilovat-saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 61,3 milyon kilovat-saat (İES-lərdə 41,4 milyon kilovat-saat, SES-lərdə 12,3 milyon kilovat-saat, GES-də 7,6 milyon kilovat-saat), “Azərişıq” ASC üzrə külək elektrik stansiyalarında 4,1 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 446 milyon kilovat-saat təşkil edib.

Bu dövrdə elektrik enerjisinin ixracı 36 faiz artaraq 301,5 milyon kilovat-saat, idxalı isə 40 faiz azalaraq 19,5 milyon kilovat-saat olub.

Qeyd edək ki, 2025-ci ilin fevral ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard 374 milyon kilovat-saat olub. Bu dövrdə elektrik enerjisinin ixracı 146,1 milyon kilovat-saat, idxalı isə 8,4 milyon kilovat-saat təşkil edib.

# Əmək müqavilələri 1,9 milyona çatıb

**İş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun “ağardılması” və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bağlanmış əmək müqavilələrinin sayı cari ilin mart ayının 1-nə 1 milyon 864 min (2019-cu ilin əvvəli ilə müqayisədə 463 min çox) olub.**

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, qeyri-neft sektorunun özəl bölməsində isə həmin göstərici 436 vahid artaraq 977 min təşkil edib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Heydər Əliyev Mərkəzində “Qızılgülün sirri” sərgisi

**Martın 14-də Heydər Əliyev Mərkəzində belaruslu heykəltaraş Andrey Ostaşovun “Qızılgülün sirri” (“The mystery of the rose”) sərgisinin açılışı olub.**



Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Sərgidə müəllifin “Yuxulara səyahət”, “Pişik-qız və tısbağa rəqsi”, “Yelpik və albalı”, “Ürəklə qız”, “Günəşin uşaqları”, “Hind fili və kəpənəklər” kimi ilk dəfə məhz Bakıda tamaşaçı qarşısına çıxartdığı əsərləri də yer alıb.

Jurnalistlərə müsahibəsində heykəltaraş Andrey Ostaşov Bakıda açılan sərgisinin bəlkə də onun üçün ən böyüklərindən olduğunu dedi: “Burada 80-ə yaxın heykəl toplanılıb. Böyük məmnunluq hissi keçirirəm ki, işlərimi Azərbaycanda nümayiş etdirmək imkanım yaranıb. Ümid edirəm ki, ziyarətçilər bəyənəcəklər”.



Sərginin əsas mövzusunun insan duyğularına, qadın və kişi, daxili dünyanın gözəlliyinə həsr olunduğunu qeyd edən heykəltaraş məhz ona görə də sərgini “Qızılgülün sirri” adlandırdığını bildirib. “Qızılgül özünü qoruyan çiçəkdir, lakin içəridə incə bir canlıdır”, – deyə o, əlavə edib.

Tədbirin açılışında çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Andrey Ostaşovun yaradıcılığı ilə təsadüfən qalereyalardan birində tanış olduğunu dedi: “Həqiqətən məni heyrətləndirən yeni əsərlər gördüm. Andrey və əziz kuratorumuz İrina xanıma belə gözəl bir sərgini həyata keçirə bildiyimiz üçün təşəkkürümü bildirirəm. Əminəm ki, hamı onu bəyənəcək”.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu Andrey Ostaşovun adının bütün dünyada kifayət qədər məşhur olduğunu bildirib: “Sərginin bu gözəl binada – Heydər Əliyev Mərkəzində keçirilməsi heykəltaraş üçün başqa bir mərhələdir. Mən sizə böyük uğurlar arzulayıram və hər il olmasa da, ən azı bir neçə ildən bir Bakıda öz sərgilərinizi təşkil edəsiniz və sənətinizlə bizi sevindirəsiniz”.

Heykəltaraşın həyat yoldaşı, sərginin kuratoru İrina Kolomenskaya sərgidə bu qədər sənətsevərlərin toplanmasının çox həyəcanverici hiss olduğunu deyərək, Andrey Ostaşovun işlərinin Heydər Əliyev Mərkəzinin zallarında nümayiş olunması ideyasına görə minnətdarlığını bildirib.

1970-ci ildə Belarusda doğulan Andrey Ostaşovun rəssam kimi formalaşmasında Belarus, Rusiya və Avropa incəsənət məktəblərinin təsiri olub.

Onun əsərlərində gözəllik mütləqdir və o, artıq yox olmaqda olan estet-filosoflar nəslinə aid rəssamdır. Heykəltaraş yaradıcılığında Uzaq Şərq regionunun məişət əşyaları və tətbiqi sənətin, samuray və Teddi oyuncaq ayılarının, nağıl şahzadələrinin və şamanların təsvirləri ilə cəsarətlə oynayır.

Belarus Rəssamlar İttifaqının üzvü, 100-dən çox respublika və beynəlxalq sərginin iştirakçısı, incəsənət və memarlıq müsabiqələrinin laureatı olan Andrey Ostaşovun əsərləri Belarusun Milli İncəsənət Muzeyinin daimi ekspozisiyasında, Avropa və Asiyada şəxsi kolleksiyalarda saxlanılır.

Heykəltaraşın fərdi sərgiləri Monako, Paris, Pekin, Sankt-Peterburq, Tbilisi, Şanxay, Vyana və s. şəhərlərdə təşkil olunub.

Daş və bürünclə işləyən Andrey Ostaşov ilk növbədə forma və xətt yaradıcısı, tunc və daş işində mütəxəssis, səth və həcm yaradıcısıdır. Andrey Ostaşovun əsərlərini fərqləndirən amillərdən biri də miniatürlükdür. Bu isə memarın ustadlığını bir daha nümayiş etdirir.

Andrey Ostaşov yaradıcılıq materialları toplamaq məqsədilə dünyanın müxtəlif yerlərinə, xüsusilə də Asiya ölkələrinə çoxlu səyahət edir. Müəllifin xüsusi marağı isə insanın daxili aləmidir. Təsadüfi deyil ki, Bakı sərgisi də “Qızılgülün sirri” adlanır. Bu çiçək eyni anda zahiri gözəlliyi və mənəvi dərinliyi, əlçatmazlığı və əzəməti, gücü və həssaslığı ehtiva edir. “Qızılgülün sirri” hər kəs üçün fərqli və unikaldır. Heykəltaraş bizi yenidən bu dərin və gözəl səyahətə – öz daxili dünyamıza dəvət edərək eksponatlarının mənasını tapmağa və bu prosesin iştirakçısına çevrilməyə çağırır.

***XQ***

# Leyla Əliyeva və Arzu Əliyeva şəhid anaları ilə iftar məclisində



**Martın 14-də Heydər Əliyev Fondunun dəstəyi ilə müqəddəs Ramazan ayında daha bir iftar süfrəsi təşkil olunub.**

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iftar məclisində iştirak ediblər.

İftar süfrəsinə Azərbaycanın müxtəlif bölgələrindən və ucqar kəndlərindən şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, qazilər dəvət olunublar.



Mərasimdə “Qurani-Kərim”dən ayələr və şəhidlərimizin ruhuna dualar oxunub.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun şücaətindən və torpaqlarımızın erməni işğalından azad edilməsindən, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının qəhrəmanlıqlarından danışıblar. Həmçinin dövlətimizə, xalqımıza xoş günlər, firavanlıq, əmin-amanlıq, şəhidlərimizə rəhmət, qazilərə cansağlığı, Rəşadətli Azərbaycan Ordusunun mənsublarına güc-qüvvət arzulanıb, ölkə rəhbərliyinə minnətdarlıq ifadə olunub.

“Fire Land Group”un “Mənim oğlum qəhrəmandır” layihəsi çərçivəsində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan tədbirdə daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış edib.

Qeyd edək ki, Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın yad edildiyi, onların ailələrinin iştirak etdiyi “Mənim atam qəhrəmandır” və “Mənim oğlum qəhrəmandır” layihələri çərçivəsində silsilə tədbirlər təşkil olunur. Şəhid ailələrinin iştirakı ilə keçən bu cür tədbirlər indiyədək bir sıra rayonları əhatə edib.

# XII Qlobal Bakı Forumu öz işini yekunlaşdırıb

## *Sonuncu panel iclasında gənc liderlər çıxış ediblər*




**Forumun “Gənclər danışsın, biz dinləyək” mövzusunda sonuncu panel iclasının ikinci hissəsi “Sigma Squared”in baş katibi Assen Plevnelievin moderatorluğu ilə keçirilib. Panelin ikinci hissəsində gənc liderlər dünyada mövcud iqtisadi vəziyyəti və təhlükəsizlik məsələlərini müzakirə ediblər.**

Latviya Respublikası Ədliyyə Nazirliyinin Dövlət hüquq departamentinin direktor müavini Marts Eduards İvaskis fəaliyyət göstərdiyi sahə ilə bağlı təcrübəsini bölüşüb, həmçinin indiyədək dezinformasiya və yanlış məlumat yayma kampaniyaları, sağ populist partiyalar və Avropa İttifaqı siyasəti ilə əlaqəli mövzularda çıxış etdiyini bildirib.

“Chatham House”da US və Amerika Proqramı üzrə “Schwarzman Academy Fellow” olaraq fəaliyyət göstərən Kanişx Kanodia hazırda tədqiqatlarının Birləşmiş Ştatların təhlükəsizlik və müdafiə siyasəti üzərində cəmləndiyini diqqətə çatdırıb. O, ABŞ–Çin münasibətləri və Hind-Sakit okean hövzəsində rəqabətlə bağlı məsələləri araşdırmaqla maraqlandığını deyib.

Aspen İnstitutu Beynəlxalq Partnyorları təşkilatının direktor müavini Savannah Lane bildirib ki, beynəlxalq münasibətlər sahəsində Vaşinqton, D.C.-də aparıcı proqramlar və siyasət direktoru olaraq fəaliyyət göstərir. O, xüsusən mədəniyyət diplomatiyası və qadın liderliyi sahələrinə yönəlir və beynəlxalq təhlükəsizlik mövzusunda ixtisaslaşır.

Savannah “NATO 2030 Global Fellowship” proqramını başladıb və bu təşəbbüsə NATO-nun İctimai Diplomatiya Bölməsi dəstək verib. Savannah TRT World, ANews və digər media orqanlarında beynəlxalq şərhçi kimi çıxış edib.

Əhmədiyyə Müsəlman İcması Əmirinin müşaviri Eiqan Əhməd Şams bildirib ki, Reyxman Universitetində hüquq üzrə bakalavr (LLB) və hökumət, beynəlxalq münasibətlər və strateji araşdırmalar üzrə bakalavr (BA) təhsili alır. O, Müqəddəs Torpaqda Əhmədiyyə Müsəlman İcmasının rəhbərinin müşaviri kimi bir çox konfransların təşkilində əsas rol oynayır. Bu səylər xüsusilə son müharibədən sonra ərəb və yəhudi icmaları arasında etimad və qarşılıqlı anlaşmanı gücləndirmək məqsədi daşıyır.

“İdeologiyanı bombalarla susdurmaq mümkün deyil. Terrorçuluqla mübarizədə müharibə yolunun sonu yoxdur”, – deyə Eiqan Əhməd Shams bildirib.

Panel iclasının digər iştirakçısı - Çipata şəhərinin meri George Mvanza Zambiya tarixində 2021-ci ilin avqustunda ölkənin ən gənc seçilmiş meri kimi yer alıb. Onun şəxsi şüarı belədir: “İnklüziv, inkişaf etmiş və daha yaxşı Çipata şəhəri üçün”.

“Biz 50 min ev təsərrüfatını su ilə təchiz etdik. İqlim böhranının insanların həyatına mənfi təsir göstərdiyi dövrdə biz Afrikada bələdiyyələrin əhalinin rifahının yaxşılaşdırılması istiqamətində fəaliyyətə yönləndirilməsini təşviq edirik”, – deyə George Mvanza əlavə edib.

Digər çıxış edənlər öz ölkələrinin təcrübələrini bölüşməklə yanaşı, gənclərin səsinin eşidilməsi, idarəçilikdə və vacib qərarların qəbulunda onlarında mövqeyinin nəzərə alınmasının vacibliyini vurğulayıblar.

Gənclər arasında yekun fikir mübadiləsindən sonra XII Qlobal Bakı Forumu öz işini yekunlaşdırıb.

***XQ***

# Qədim insan məskənləri tarixin təməlidir




**Martın 15-də Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Qədim insan məskənlərinin mühafizəsi: Təhdidlər və müasir yanaşmalar” mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.**

Məclisdə əvvəlcə Azıx və Tağlar mağaraları ilə bağlı videoçarx nümayiş olunub.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov bildirib ki, əsas məsələ beynəlxalq səviyyədə qədim insan məskənlərinin mühafizəsi üzrə tədbirin keçirilməsidir. “Təbii ki, bu məskənlər ən çox müharibələr zamanı vandalizmə məruz qalır. Bundan əlavə, təbiət hadisələri də bu prosesə təsir göstərir. Bu gün mühafizə rejimləri dəyişməli, yeni çağırışlara uyğunlaşmalıdır”, – deyə F.Cəfərov əlavə edib.



Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev qeyd edib ki, hazırda mədəni irs üçün ən böyük təhlükə mina problemidir. O, işğaldan azad edilmiş ərazilərin böyük bir hissəsinin mədəni irs abidələrinin əhatəsində yerləşdiyini deyib. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova rəhbərlik etdiyi Fondun fəaliyyət istiqamətindən söhbət açıb. İqtisadi Əməkdaşlıq Təşkilatı Mədəniyyət İnstitutunun prezidenti Saad S.Xan İƏT-in fəaliyyət istiqaməti barədə məlumat verib.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru, dosent Fərhad Quliyev işğaldan azad edilən ərazilərimizdə sistematik şəkildə məhv edilən tarixi abidələrimizin bərpa edilib, gələcək nəsillərə ötürülməsinin vacibliyindən danışıb, Akademiyanın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, Akademiyanın müxbir üzvü Vəli Baxşəliyev Gəmiqaya təsvirləri barədə ətraflı məlumat verib.

***XQ***

Əbülfəz Quliyev – 75

# Qədim türk yazılı abidələrinin naxçıvanlı tədqiqatçısı

**Ölkənin elmi-mədəni ictimiyyəti tanınmış türkoloq, Azərbaycan MEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, Əməkdar müəllim Əbülfəz Aman oğlu Quliyevin anadan olmasının 75 illiyini sayğı və qədirbilənliklə qeyd edir.**



Əbülfəz Quliyev həm ölkəmizdə, həm də türk dünyasında görkəmli dilçi-türkoloq alim kimi tanınır, onun tədqiqatlarının ciddiliyi və mötəbərliyi qəbul edilir. O, tədqiqatları ilə türkologiyanı zənginləşdirən, bu sahədə öz sözü, öz fikri olan türkoloq-alimlərdəndir. Təsadüfi deyildir ki, türkologiya ilə bağlı keçirilən tədbirlərdə alimin yeri və fəaliyyəti həmişə hiss olunur, o, apardığı tədqiqatlarla həmin tədbirləri yeni fikirləri ilə zənginləşdirir.

Türkoloqlar professor Əbülfəz Quliyevə ciddi və məhsuldar bir alim kimi yanaşır və hörmət göstərirlər. Təkcə belə bir faktı qeyd etməliyik ki, alimin qədim türk onomastikasının leksik-semantik sisteminə aid tədqiqatı türkologiyada ilk dəfə olaraq qədim türk yazılı abidələrinin onomastikası tam şəkildə elmi ictimaiyyətə təqdim edilmişdir.

Əbülfəz Quliyev 1950-ci il martın 27-də Naxçıvan şəhərində dünyaya göz açmışdır. O, 1966-cı ildə orta məktəbi, 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Naxçıvan şəhərindəki 1 saylı orta məktəbdə dil-ədəbiyyat müəllimi işlədikdən sonra Naxçıvan Dövlət Pedaqoji İnstitutunda müəllim kimi fəaliyyətini davam etdirmişdir.

Əbülfəz müəllim ömrünün 50 ildən artıq bir dövrünü bu ali təhsil ocağında dilçiliyin müxtəlif sahələrindən mühazirələr oxunmasına, ixtisaslı kadrlar hazırlanmasına həsr etmişdir. O, burada baş müəllim, dosent və professor kimi fəaliyyətini davam etdirmiş, 1993–2003-cü illərdə "Azərbaycan dilçiliyi" kafedrasının müdiri vəzifəsində işləmişdir. Bu gün də Naxçıvan Dövlət Universitetində professor kimi pedaqoji fəaliyyət göstərir.

Türkoloq alim 1979-cu ildə "Orxon-Yenisey abidələrində felin təsriflənməyən formaları (Azərbaycan dili ilə müqayisədə)" mövzusunda namizədlik, 2003-cü ildə "Qədim türk onomastikasının leksik-semantik sistemi" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. 1989-cu ildə dosent, 2006-cı ildə isə professor elmi adını almışdır. Alim 2003-cü ildə Azərbaycan MEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutuna direktor, 2007-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir.

Görkəmli türkoloq alimin tədqiqatlarında qədim türk abidələrinin dilindən geniş bəhs etmiş, bununla bağlı bir sıra əsərlər nəşr etdirmişdir: "Qədim türk yazılı abidələri dilinin sintaksisi" (1990), "Qədim türk yazılı abidələri dilinin sözlüyü" (1992), "Qədim türk onomastik sözlüyü" (1999), "Qədim trük onomastikasının semantik sistemi" (I, II hissə, 2002) və b.

Professor Əbülfəz Quliyev əski türk yazılı abidələrinə, xüsusilə, Orxon-Yenisey abidələrinə, qədim türk onomastikası və folkloruna həsr olunmuş tədqiqatları ilə Azərbaycan dilçiliyində, bütövlükdə, türkologiya sahəsində öz sözünü deməyi bacarmış, yeri və mövqeyini müəyyənləşdirmişdir. "Orxon-Yenisey abidələrində feilin təsriflənməyən formaları" (1997), "Orxon-Yenisey abidələrində toponim və etnonimlər" (2004), "Qədim türk onomastikası" (2007, "Qədim uyğur türklərinin onomastikası" kimi kitab və monoqrafiyaları onun türkologiya sahəsində ciddi bir tədqiqatçı olduğunu göstərmişdir.

Alimin yaradıcılığında Naxçıvanın dialekt və şivələri, onun sözlüyü, xarakterik cəhətlərinin təhlili mühüm yer tutur. Onun bu istiqamətdə apardığı tədqiqatların nəticəsi kimi hazırladığı kitablar həm ölkəmizdə, həm də Türkiyə Cümhuriyyətində nəşr olunmuşdur. "Nahçıvan ağızı" (Ankara, 2009), "Nahçıvan ağızlarının söz varlığı" (Ankara, 2011), "Azərbaycan dilinin Naxçıvan və şivələrinin lüğəti" (həmmüəllif, Naxçıvan, 2017) və başqa əsərləri bu qəbildəndir.

AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin elmi yaradıcılığı olduqca geniş və çoxşaxəlidir. O, Azərbaycanda dilçilik elminin inkişafında xidmət göstərdiyi kimi, türk abidələrinin, yazılarının öyrənilməsinə, Naxçıvan dialekt və şivələrinin tədqiqinə, XIX və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş maarifçi ziyalıların, tarixi şəxsiyyətlərin, diplomatların xalqımıza tanıdılmasında da böyük xidmətlər göstərmişdir. Böyük mütəfəkkir və görkəmli ictimai xadim Məhəmmədağa Şahtaxtlını dilçi, naşir kimi tədqiq edən alim, onun publisistikasından da bəhs etmiş və bunlarla əlaqədar 2 kitab nəşr etdirmişdir.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun ədəbiyyatşünaslıq şöbəsinə akademik İsa Həbibbəylinin rəhbərliyi dövründən nəşrə başlayan görkəmli alim, naşir və mütəfəkkirlərin "Taleyi və sənəti" seriyanı Əbülfəz Quliyev davam etdirmişdir. Onun rəhbərliyi və iştirakı ilə Məhəmmədhüseyn Təhmasib, Məmməd Araz, Nemətullah Naxçıvani, Ərtoğrol Cavid, Kəmalə, Nağı Nağıyev, Müzəffər Nəsirli, Hüseyn Razinin taleyi və sənətindən bəhs edən əsərlər nəşr edilmişdir. Əbülfəz Quliyev elmi fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla, tərcümə sənəti ilə də məşğul olmuş, Naxçıvanın tarixi, tarixi coğrafiyası, toponimikası ilə də bağlı tərcümələr etmiş, əsərlər nəşr etdirmişdir.

Alim bir müddət Türkiyə tərəfinin xahişi ilə Qars Qafqaz Universitetində müəllim işləmiş, türkologiyanın bir sıra sahələrindən mühazirələr aparmış, türk tələbələrinin yüksək ixtisaslı kadrlar kimi formalaşmasına xidmətlər etmişdir. O, həm də Azərbaycan xalq ədəbiyyatında Naxçıvan nəğmələri və Azərbaycan mərasim nəğmələrindən bəhs edən kitabları orada türk dilində nəşr etdirmişdir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün azərbaycanlı dostu, Azərbaycanın Türkiyədəki ilk səfiri İbrahim Əbilovla birgə əməkdaşlığından bəhs edən "Qazi Mustafa Kamalın dostu" povesti Azərbaycan–Türkiyə dostluğuna həsr edilmişdir.

Əbülfəz Quliyev AMEA Naxçıvan Bölməsində bir sıra ümumiləşdirici əsərlərin hazırlanmasında yaxından iştirak etmişdir. İkicildlik "Naxçıvan ensiklopediyası", üçcildlik "Folklor antologiyası", "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlasın və başqa əsərlərin hazırlanmasında ağıllı məsləhətləri, tövsiyələri və əməli fəaliyyəti ilə kömək göstərmişdir.

Əbülfəz Quliyev yarım əsrdən artıqdır ki, elmi-pedaqoji fəaliyyətlə məşğuldur. Onun qələmindən 45-ə qədər kitab, monoqrafiya, dərs və tədris vəsaitləri, 350-dən çox elmi məqalə, 300-ə qədər də elmi-kütləvi məqalələr çıxmışdır. Onun kadr hazırlığında da xüsusi xidmətləri olmuşdur. Alimin rəhbərliyi ilə 16 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə edərək elmi dərəcə almışdır. O, Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Dissertasiya Şurasının sədri kimi geniş elmi-təşkilati iş aparır.

Professor Ə.Quliyev 20 ildən artıqdır ki, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutuna rəhbərlik edir. Bu illərdə institutun kadr potensialı artırılmış, hazırlanmış kitab və monoqrafiyalar, elmi məqalələr respublikada və xarici ölkələrdə nəşr edilir.

Alim dünyanın onlarca ölkəsində – Rusiya, Türkiyə, Macarıstan, Polşa, İran, Bolqarıstan, Xorvatiya, Qazaxıstan, Türkmənistan, Qırğızıstanda keçirilmiş beynəlxalq tədbirlərdə Azərbaycan elmini layiqincə təmsil etmiş, maraqlı və əhəmiyyətli elmi məruzələr etmişdir.

Əbülfəz Quliyevin elmi-pedaqoji xidmətləri və ictimai fəaliyyəti layiqincə qiymətləndirilmişdir. 2009-cu ildə tanınmış ziyalıya "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adı verilmişdir. Alim 2024-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" xatirə medalı ilə təltif edilmişdir. O, İran İslam Respublikasının Şəhriyar beynəlxalq mükafatını, AMEA Rəyasət Heyətinin Fəxri fərmanlarını və digər mükafatlara da layiq görülmüşdür. Soydaşımız Türk Dünyası Elm və Sənət Adamları Birliyinin, Beynəlxalq Türk Akademiyasının, Avrasiya Yazarlar Birliyinin və Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvüdür.

75 illik ömrünün 50 ilini elm və təhsilin inkişafına, çiçəklənməsinə həsr etmiş Əbülfəz Quliyev bu gün də zəkası və Vətən sevgisi ilə xalqımıza xidmətini uğurla davam etdirir. Türkoloq alimimizi ömrünün müdriklik çağının zirvəsində səmimi təbrik edir, ona möhkəm cansağlığı və yeni uğurlar arzulayırıq.

*İsmayıl HACIYEV,*
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

# Sədərəyin su ehtiyacı aradan qaldırılır



**"Sədərək" firmasının Sədərək rayonunda həyətyanı sahələrin suvarılması məqsədilə qazdığı 6 yeni subartezian quyusu istifadəyə verilib. Bu münasibətlə rayonda olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli görülən işlərlə tanış olub, sakinlərin təsərrüfat qayğıları ilə maraqlanıb.**

Bildirilib ki, rayonda uzun illərdən bəri su, kanalizasiya və yol problemlərisürətlə həll edilir və yaxın 1 ildə tam aradan qaldırılacaq. Sədərək rayon sakinləri Əkbər Kərimov və Nəcəf Fərzəliyev yaradılan şəraitə görə minnətdarlıq ediblər.

Qeyd edək ki, "Sədərək" firması tərəfindən rayonda həyətyanı sahələrin suvarma suyuna olan tələbatının tam ödənilməsi üçün, ümumilikdə, 30 subartezian quyusunun istismara verilməsi nəzərdə tutulur. Hazırda işlərin 50 faizi görülüb. Yeni istifadəyə verilən 6 subartezian quyusunun hər birinin su sərfiyyatı saatda 25 kubmetrdir. Tikinti-quruculuq işləri çərçivəsində diametri 200 millimetr borularla 7 kilometr, diametri 110 millimetr borularla isə 1,5 kilometr olmaqla, ümumilikdə, 8,5 kilometr suvarma su xətti çəkilib.

# FHN-ə yeni texnika verilib

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yeni avtomobil və avadanlıqlar alınıb.**



Bununla əlaqədar Fövqəladə Hallar Nazirliyinin mülki müdafiə alayında keçirilən təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-mayor Şahin Mirzəyev iştirak edib.

Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə alınan 2024-cü il istehsalı olan 5 ədəd "Hyundai" markalı, 12 ədəd "Lada" markalı və 6 ədəd "Jac" markalı müasir avtomobillər haqqında məlumat verilərək bildirilib ki, müasir interyerə malik avtomobillərin hər biri ən yeni rəqəmsal sistemlə təsis olunub. Bu avtomobillər yüksək manevr imkanları və müasir təchizatı ilə xidmətin operativ təşkilinə hərtərəfli şərait yaradacaq.

Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı əhalinin təhlükəsiz şəraitdə yerləşdirilməsini təmin etmək məqsədilə 500 ədəd 5 nəfərlik çadır, eləcə də 2000 ədəd çarpayı, 1600 ədəd oturacaq, 400 ədəd masa, hər birindən 2000 ədəd olmaqla adyal, yastıq və dolabça da alınıb.

# Hüquqi-psixoloji aksiya



**Xidmət Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrində bir qrup həbs olunmuş şəxsə və cəzaçəkən məhkumlara pulsuz hüquqi və psixoloji xidmət göstərilib.**

Aksiyanı Naxçıvan Muxtar Respublikasi Vəkillər Kollegiyasının vəkilləri və nazirliyin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri həyata keçiriblər. Müəssisədə "Konstitusiya və Suverenlik İli" çərçivəsində əvvəlcə Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində cəza çəkən şəxslərin iştirakı ilə "Məhkum olunmuş şəxslərə hüquqi və psixoloji yardımın göstərilməsi" mövzusunda görüş keçirilib. Ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi Emin Kazımov bildirib ki, bugünkü aksiyada məhkum olunmuş şəxslərə pulsuz hüquqi və psixoloji yardımın göstərilməsi üçün nəzərdə tutulub.

Sonra Vəkillər Kollegiyasının vəkilləri müəssisədə cəza çəkən bir qrup şəxslə görüşüb, onlara ödənişsiz hüquqi yardım göstəriblər. Görüş zamanı onları maraqlandıran suallar cavablandırılıb, mülki və cinayət qanunvericiliyinin müddəaları izah edilib, bir sıra yazılı və şifahi məsləhətlər verilib.

Nazirliyin Məhkəmə Ekspertizası Mərkəzinin ekspert-psixoloqları isə müxtəlif rejimlərdə cəza çəkən 30-dan çox şəxslə görüşüb, onlardan psixoloji yardıma ehtiyacı olanlarla fərdi görüşlər təşkil ediblər.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

# Vergi ödəyiciləri ilə görüşlər





**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi ombudsmanı xidməti baş idarəsinin rəisi Arif Quliyevin iştirakı ilə Naxçıvan və Ordubad şəhərlərində vergi ödəyiciləri ilə görüşlər keçirilib.**

Vergi ödəyicilərinin vergi və sığorta qanunvericiliyi və inzibatçılığı sahəsində rastlaşdıqları çətinliklərin və bu istiqamətdə təkliflərinin öyrənilməsi məqsədilə keçirilmiş görüşlərdə kiçik, orta və iri sahibkarlıq subyektlərinin nümayəndələri iştirak ediblər.Vergi ombudsmanı xidməti baş idarəsinin rəisi Arif Quliyev baş idarənin yaradılmasında əsas məqsədin vergi ödəyicilərinin hüquqlarının qorunması üçün preventiv tədbirlərin görülməsi olduğunu bildirib və bu sahədə səmərəliliyin artırılması üçün həyata keçirilən tədbirlər barədə danışıb.

Görüşlər zamanı Dövlət Vergi Xidmətinin internet saytında yeni yaradılmış "Vergi ombudsmanı" bölməsinin təqdimatı keçirilib. Sahibkarlar vergi və sığorta qanunvericiliyi və inzibatçılığı ilə bağlı rastlaşdıqları çətinliklərlə bağlı fikirlərini, suallarını və təkliflərini səsləndiriblər.

Naxçıvan və Ordubad şəhərlərində keçirilmiş görüşlər zamanı tədbirlərdən öncə vergi orqanlarına edilən müraciətlərə dair sahibkarlar arasında real rejimdə keçirilmiş sorğunun nəticələri müzakirə edilib, əlavə interaktiv sorğular aparlıb, iştirakçılara fikirlərini anonim formada çatdırmaq imkanı yaradılıb.

***XQ***

Vaqif Mustafazadə – 85

# Azərbaycan cazının dünya fatehi

**Yaşasaydı bu gün 85 yaşı olacaqdı. Söhbət Azərbaycanın görkəmli caz bəstəkar və ifaçısı Vaqif Mustafazadədən gedir. Onu Sovet İttifaqında etno-cazın pioneri, dünya səviyyəsində isə qədim Şərq musiqi ənənələri ilə Qərb musiqisinin sintezini yaradan virtuoz sənətkar da adlandırmaq olar.**



Vaqif Mustafazadə 1940-cı il martın 16-da Bakıda anadan olub. Atası əslən Şəkidən olan hərbi həkim idi. Anası isə Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəyovun tələbəsi olmuş, ilk pianoçulardan biri, muğamın gözəl bilicisi Zivər xanım idi.

İlk müəllimi də anası olmuşdu. Vaqif hələ doqquz yaşında ikən milli musiqini özünəməxsus şəkildə improvizə edirdi. Əvvəlcə A.Zeynallı adına musiqi məktəbində oxumuş, sonra isə təhsilini Azərbaycan Konservatoriyasında davam etdirmişdi. Burada o, Qərb klassik musiqisi ilə tanış olmuş, Bax, Motsart, Bethoven, Şopen, Mendelson, Raxmaninov və başqalarının əsərlərini ifa etmişdi.

Zaman keçdikcə piano ifaçılığı onu öz orbitinə çəkmişdir. 1956-cı il mayın 30-da



Amerikalı caz tənqidçisi Uillis Konover və V.Mustafazadə

Bakı Filarmoniyasında böyük səhnədə ilk çıxışı Vaqifin gəncliyinin ən parlaq anlarından birinə çevrilmişdir. On altı yaşlı V.Mustafazadə Mendelsonun fortepiano konsertinin birinci hissəsini parlaq ifa etmişdir. Gənc istedadın ifasına heyran olan azərbaycanlı dirijor və bəstəkar, maestro Niyazi onun böyük musiqiçi olacağının proqnozunu vermişdir.

Vaqif tez-tez Con Koltreyn, Oskar Peterson, Thelonious Monk və Bill Evenson kimi məşhur xarici caz musiqiçilərinin yazılarını dinləyib və bu, onun musiqi karyerasının müəyyənləşməsində mühüm rol oynayıb.

Ə.Zeynallı adına musiqi məktəbində oxuyarkən – 18 yaşında Vaqif Radio Komitəsində solist kimi işləməyə başlayıb. 1964-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirib.

Lakin bir il sonra Vaqif Tbilisiyə köçüb və məşhur "Orero" ansamblının musiqi rəhbəri olub. O, istedadlı musiqiçi Tamaz Kuraşvili ilə əməkdaşlıq edib. Bu yaradıcılıq birliyi nəticəsində yeni musiqi layihələri yaranıb, onlar müxtəlif festivallarda, caz konsertlərində çıxış etməyə başladılar. Tbilisidə o, Gürcüstan Dövlət Filarmoniyasında özünün ilk qrupunu, "Qafqaz" caz triosunu (qrupun üzvləri: Vaqif Mustafazadə, Geno Nadiraşvili, Feliks Şabsis) yaratdı.

Vaqifin möhtəşəm uğurlarından biri 1966-cı ildə Tallində XIII Beynəlxalq Caz Festivalında oldu. Orada bir neçə kompozisiya ifa etdi və qeyri-adi ifası ilə tamaşaçıların qəlbini fəth edərək festivalın laureatı oldu. Məşhur amerikalı caz tənqidçisi V.Konover Vaqifin C.Qerşvinin "Sevdiyim adam" əsərini virtuoz ifasını lakonik şəkildə belə şərh etmişdir: "O, indiyə qədər eşitdiyim ən lirik pianoçudur".

***

1968-ci ildə Vaqifin SSRİ şəhərlərinə ilk qastrol səfəri baş tutdu. Ümumittifaq səviyyəsində ciddi uğurlar qazanan Vaqif Mustafazadə elə həmin il Azərbaycanın Mədəniyyət naziri, bəstəkar Rauf Hacıyevin təkidi ilə sevimli Bakı şəhərinə qayıtdı. Gənc musiqiçi Vətəndə yaradıcılığa böyük şövqlə başladı. 1970-ci ildə "Leyli" adlı ilk qadın vokal qrupunu yaratdı. Qısa müddətdə qrup şəhər əhalisi arasında məşhurlaşdı. Bir il sonra qrupun heyəti və adı dəyişdi – "Sevil". Repertuarda caz aranjimanlarında mahnılar və melodiyalar üstünlük təşkil edirdi. Qrupun dörd solistindən biri Tbilisidə tanış olduğu həyat yoldaşı Elza Mustafazadə (Bandzeladze) idi.

O, öz əsərlərini bəstələməklə yanaşı, caz aranjimanlarında Qara Qarayevin klassik musiqisini, Tofiq Bakıxanovun orijinal musiqisini və xalq havalarını təqdim edib. Azərbaycan muğamını dərindən bilməsi və onun klassik caz musiqisi ilə sintezi ona etnocazda yeni istiqamət – Azərbaycan cazını (caz-muğam) yaratmağa imkan verdi. Şərq musiqisi ilk dəfə caz üslubunda yeni görünüş qazandı. Təbii ki, doğma Bakıda yeni üslubun qavranılmasında hər şey o qədər də rəvan deyildi. Görkəmli bəstəkar Tofiq Quliyev ona bir çox cəhətdən dəstək verdi. Caza olan həvəsi onu istedadlı bəstəkar və ifaçı Rafiq Babayevlə birləşdirdi. 1977-ci ildə Vaqif Mustafazadə "Muğam" caz qrupunu yaratdı. Elə həmin il Donetskdə keçirilən Ümumittifaq Caz Festivalında iştirak etdi.

Ömrünün son iki ili musiqiçinin həyatında çox məhsuldar oldu. "Melodiya" şirkəti onun "Jazz Improvisations" adlı ikili albomunu və bəstəkar Tofiq Quliyevin əsərlərinin aranjimanları ilə rekordunu buraxdı. O, "Tbilisi-78" caz festivalında parlaq çıxış etdi.

V.Mustafazadənin fenomenal yaddaşı



və parlaq ifa tərzi onun ifasını digər musiqiçilərdən fərqləndirirdi.

***

Obyektiv səbəblərdən Vaqif Mustafazadə uzun müddət dünya caz səhnəsində debüt edə bilmədi. Lakin tövsiyələrə əməl edərək 1979-cu ildə "Əzizəni gözləyərkən" bəstəsini Monakoda keçirilən Ümumdünya Caz Musiqisi Müsabiqəsinə göndərdi. Bu məkanda o, dünyanın hər yerindən caz musiqiçiləri ilə yarışırdı. Onun həyəcanı və çalışqanlığı öz nəticəsini verdi: Azərbaycan bəstəkarı və ifaçısının bəstəsi Qran-pri aldı. Vaqif müsabiqə iştirakçıları arasında ən yaxşı ifaçı oldu. Qalibə təkcə mükafat deyil, həm də sülh və həyata sevgi gətirən saf musiqinin simvolu kimi "ağ royal" hədiyyə olunmalı idi. Amma musiqiçi bunu bilmirdi...

***

Təbii ki, dahi musiqiçinin yaradıcılığında caz əsas yeri tuturdu. Onun caz kolleksiyası təkcə rəngarəng milli kompozisiyalardan ibarət deyildi. Musiqiçinin "Mavi Daniel", "Ritm", "İradə" kimi onlarca əsəri klassik caz ənənələri üslubunda yazılmışdı. Qeyd edək ki, Vaqif Mustafazadə həm də simfonik və kamera musiqisi yazıb. O, çoxsaylı kameralı fortepiano əsərlərinin müəllifidir. Ümumilikdə, qısa ömrü ərzində o, 1200-dən çox musiqi əsəri bəstələmişdir.

***

1979-cu il dekabrın 15-də Vaqif "Muğam" qrupu ilə Daşkənddə qastrol səfərində olub. Konsertin birinci hissəsində o, barmaqlarının artıq ona tabe olmadığını və nəfəsinin kəsildiyini hiss edib. Həkimlərin məsləhətinə baxmayaraq, o, ikinci hissəni də davam etdirib. Bu, Vaqif Mustafazadənin son konserti idi. O, 39 yaşında miokard infarktından vəfat etdi. Onun ölümü bütün musiqisevərləri dərindən məyus etdi. Axı hələ gənc, otuz doqquz yaşlı Vaqifi böyük yaradıcılıq uğurları gözləyirdi.

1980-ci ildə onun ölümündən sonra "Amerikanın səsi" radiosunda ingilis dilində yayımlanan "Jazz Time" verilişinin aparıcısı Uills Konover bir saatlıq proqramını Vaqif Mustafazadəyə həsr etdi. Ölkələr arasında münasibətlərin gərgin olmasına baxmayaraq, bu, sovet caz musiqiçisinin istedadına verilən ən yüksək qiymət idi.

Daha sonra ssenarist və rejissor Rüstəm İbrahimbəyov yazırdı: "O, niyə tez getdi? Həqiqətən, istedadlı insan ilahi qüvvələrin dirijorudur. İstedadlı insanda bu qüvvə nə qədər güclü olarsa, onun fiziki gücü bir o qədər tez tükənər. İlahi gücü bədəndə saxlamaq çətindir. Vaqif milli kimliyimizin, varlığımızın bir parçasıdır. O, eniş-yoxuşları ilə xalqımızın mahiyyətini dəqiq ifadə edən bir parçadır".

İsveçli pianoçu J.Yohanssonun fikrincə, Vaqif Mustafazadənin musiqisi heyrətamiz dərəcədə müasirdir və eyni zamanda, qədim Qafqaz melodiyalarının sirlərini özündə cəmləşdirir.

Vaşinqton Caz Klubunun prezidenti D.Beyker etiraf edib ki, Vaqif Mustafazadə dünyanın ən yaxşı pianoçularından biridir.

Uzun müddət Avropa Caz Forumu jurnalının baş redaktoru olan Pavel Brodovski demişdir: "V.Mustafazadə özünəməxsus üslubu olan pianoçudur. O, cazını mükəmməl ifa edir və Azərbaycan koloritindən məharətlə yararlanır. O, bir çox digər cazmenlər üçün nümunə ola bilər".

Vaqif Mustafazadənin adı ABŞ-dan olan müəlliflər kollegiyası tərəfindən Dünya Caz Ensiklopediyasına daxil edilib.

***

Bu gün Vaqifin ailəsində musiqi ənənələri uğurla davam edir. Qızı Əzizə Mustafazadə atasının yolu ilə gedib. Əzizə Mustafazadə hazırda Almaniyada yaşayır və dünya şöhrətli caz musiqiçilərindən biridir. O, mütəmadi olaraq doğma Bakıda konsertlər verir.

Bu gün Azərbaycanda Vaqifin yaratdığı etno-caz məktəbi də inkişaf edir. Onun musiqi irsindən ruhlanan istedadlı musiqiçilər böyük uğurlar qazanırlar. Vaqifin yaradıcılıq irsi gənc nəsildə belə bir hiss yaradıb ki, Azərbaycan cazı digər milli musiqi janrları kimi qədim tarixə malikdir.

Sözsüz ki, Vaqif Mustafazadə dünya caz tarixində bir inqilabçı və fenomen oldu.

***Mehman MƏMMƏDOV,***
***tibb elmləri doktoru, professor***

# Neftçi alimlərin ustad dərsləri



**Bakının Qaradağ rayonundakı Neftçi Qurban adına 288 nömrəli tam orta məktəbdə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə əməkdaşlıq çərçivəsində nümunəvi dərslər keçirilib.**

İlk dərs ADNSU-nun müəllimi, fizika üzrə fəlsəfə doktoru Dünyaməddin Əsgərovun rəhbərliyi ilə 10c (texniki təmayül) sinfində "Səs dalğaları, səsin sürəti" mövzusunda keçirilib. İkinci dərs isə məktəbin 10t ( texniki təmayül) sinfində fizika üzrə fəlsəfə doktoru İbrahim Abbasov tərəfindən eyni mövzuda keçirilib.

Məktəbin direktoru Aygün Hüseynova diqqətə çatdırıb ki, nümunəvi dərslər ADNSU ilə məktəb arasında əlaqənin genişləndirilməsi, məktəblilərin elmə marağının artırılması və yüksək bacarıqlı kadrların yetişdirilməsi məqsədlərinə xidmət edir. Şagirdlərin elmi araşdırma məsələlərinə həvəsləndirilməsi və dünyagörüşünün düzgün istiqamətdə formalaşdırılması da bu layihənin məqsədlərindəndir.

***XQ***

Ağalar İdrisoğlu – 75

# Milli səhnəmizin rejissor yazıçısı

**Mən onu əvvəllər incəsənət adamı kimi tanıyırdım. Sonradan isə bildim ki, həm də istedadlı yazıçı-publisistdir. Teatr fədaisi, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu Mehdiyev çoxsaylı kitabları ilə də oxucu rəğbətini qazanıb.**



O, 1950-ci il mart ayının 16-da Masallı rayonunun Digah kəndində dünyaya göz açıb. Yeniyetmə vaxtından müxbirlik edən, bədii yaradıcılıqla məşğul olan kənd uşağının incəsənətə verə biləcəyi böyük töhfələr hələ qarşıda idi. İlk vaxtlar Masallı Rayon Mədəniyyət Evində Şakir Həsənov və Adil Səfərovun yaratdıqları Miniatür Teatrında istedadını göstərdi, sonra Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirdi və təyinatla aktyor kimi Şəki Dövlət Dram Teatrına göndərildi. 1976-cı ildə Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına dəvət aldı. Orada püxtələşən gənc sənətçi ardınca Moskvada Anatoli Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsində də təhsil alaraq nəzəri biliklərini daha da təkmilləşdirdi. Beləcə, pillə-pillə ucaldı.

Ağalar İdrisoğlu 26 il teatrda rəhbər vəzifələrdə işləyib. Sumqayıt Gənclər Xalq Teatrında, Ağdam Dövlət Dram Teatrında, Sumqayıt Dövlət Musiqili Dram Teatrında, Azərbaycan–Dağıstan Beynəlmiləl Teatr Truppasında baş rejissor, bədii rəhbər və direktor kimi məhsuldar fəaliyyət göstərib. Azərbaycan Teatr Xadimləri İttifaqının katibi, İdarə Heyətinin üzvü və Sumqayıt bölgə şöbəsinin sədri vəzifələrində çalışıb. İstər aktyor kimi, istər rejissor və yaxud ssenarist kimi yeni-yeni uğurlara imza atıb. Saya gəlməyən (1500-dən çox) məqalələrin, müsahibələrin, publisist yazıların, esselərin, elegiyaların, pritçaların, oşerklərin, resenziyaların, elmi, tarixi məqalələrin müəllifidir. 16 pyesi, 20-dən artıq teatrlaşdırılmış tamaşanın ssenarisi, 6 romanı, 12 povesti, 150-dən artıq hekayəsi rəğbətlə qarşılanıb. Onun çap etdirdiyi 21 kitabı bu gün də oxucular tərəfindən maraqla oxunur.



Ömrünün 60 ilini bədii yaradıcılığa, jurnalistikaya, 50 ilini peşəkar teatr sənətinə həsr edən Ağalar İdrisoğlu səhnədə yaratdığı 40-dan artıq obrazı və quruluş verdiyi 140 tamaşası, dünya xalqlarının 10 pyesinin dilimizə tərcüməsi və sair ədəbiyyat, jurnalistika, incəsənət və mədəniyyət xəzinəmizinin sərvətini artırıb. Ötən ilin sonlarında Qazax Dövlət Dram Teatrında yenidən uğurla səhnəyə qoyulan "İnan mənə" pyesi hələ 1985-ci ildə Ümumittifaq Gənc Dramaturqlar Müsabiqəsində qalib olmuşdu. Onun 10-dan artıq topluda hekayələri, pyesləri, tərcümə etdiyi əsərləri yer alıb. Quruluş verdiyi "Yanmış evin nağılı" (Akif Həsənoğlu) tamaşası Osman Mirzəyev adına mükafata və özünün yazdığı "Şah İsmayıl" tamaşası "Qızıl Dərviş" mükafatına layiq görülüb.

Azərbaycan Teatr Xadimləri İttifaqının, Yazıçılar və Jurnalistlər birliklərinin üzvü olan Ağalar İdrisoğlunun çəkdiyi zəhmətlər hədər getməyib. Həmişə istedadlı adamlara diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyev onun xidmətlərini "Əməkdar İncəsənət xadimi" fəxri adı ilə mükafatlandırıb.

Ömrünün 75-ci baharını yaşayan Ağalar İdrisoğlunun müdrikliyi keçdiyi mənalı ömür yolunun örnəklərini, yaradıcılıq enerjisini gənclərə ötürə bilməsindədir. Yazıçı-dramaturq, publisist, aktyor, rejissor olan yubilyar bu gün də yorulmaq bilmədən yeniliklərə imza atır, tükənməz enerjisini mədəniyyət və incəsənətimizin inkişafına bacarıqla yönəldir. Daim teatr sənətinə, ədəbiyyata, jurnalistikaya töhfələr vermək istəyir. Onun çap ərəfəsində olan "Milli rejissor sənətimiz, onun problemləri, yaddan çıxan rejissorlar, teatr direktorları və aktyorları", "Sərhədsiz dünyamız", "Teatr sənətinin aşiqi" adlı kitablarının da bu yöndə ən layiqli nümunələrdən olacağına şübhəmiz yoxdur. Eləcə də hekayələrindən və povestlərindən ibarət 5 cildliyinin, dünya dahilərinin müdrik kəlamlarından ibarət "Sözdən yaranan incilər" toplusunun da tezliklə işıq üzü görəcəyinə və zehnimizi, düşüncələrimizi işığa qərq edəcəyinə əminik.

Biz hər dövrün əsl tarixini təkcə salnaməçilərdən deyil, həm də ədəbiyyat adamlarından, onların bədii əsərlərindən, teatr xadimlərinin səhnələşdirdikləri tamaşalardan öyrənirik. Bax, Ağalar İdrisoğlu da ürəyinin hökmü ilə, çəkinmədən, məddahlıq etmədən bu günün tarixini özünün bədii əsərləri və quruluş verdiyi tamaşalarla təqdim edən yazıçı və rejissordur.

Mən fəxr edirəm ki, onunla bir şəhərdə – gənclik ruhu ilə seçilən Sumqayıtda yaşayıram. Tez-tez görüşüb söhbət edir, zəngin bilgilərindən bəhrələnirəm. Səsində bəlkə də teatrdan gələn bir pafos hiss olunsa da, əslində, çox sadə və səmimi insandır. Kərpic-kərpic yaradıcılıq divarları hörərək qayğı ilə ucaldan, mənəviyyatca saf olan Ağalar İdrisoğlunun yubileyini təbrik edir, ömür yolunun daha da uzun və işıqlı olmasını arzulayıram!

***Rəna TƏBƏSSÜM,***
***AYB-nin və AJB-nin üzvü***

Epidemioloji durum

# Bahar nə xoş gəlir...

## Lakin təbiətin oyanışı insanda arzuolunmaz reaksiyalar da yaradır

**Yaz mövsümü allergik xəstəliklərin ən çox müşahidə edildiyi dövrdür. Allergik rinit, əsasən, çiçəklərin tozlanma dövründə baş qaldırır. Fevral ayının ortalarından başlayaraq, iyul ayının sonlarınadək gül-çiçək dövrü olduğundan bu xəstəlik davam edir. Bu fikirləri bizimlə söhbətində "Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri, tibb elmləri doktoru Yazgül Abdıyeva bildirdi. Bu dövrdə uşaqlar və böyüklər arasında allergik rinit hallarına daha çox rast gəlindiyini vurğulayan həkim əlavə etdi:**



– Yaz fəslinin başlanması təbiətin oyanmasıdır. Ağaclar tumurcuqlayır, çiçək açır. Onların ətri nə qədər xoş olsa da bəzi insanlara əks-təsir edir və onlarda allergiya reaksiyaları başlayır. Qeyd edək ki, belə reaksiyaları güllərdən daha çox alaq otları yaradır. Ən geniş yayılmış allergik reaksiyalardan biri pollinozdur. Buna çox vaxt mövsümü allergik rinit deyilir. Bu zaman əsas 4 əlamət – səhərlər 10–15 dəfə asqırma, burun tutulması, qaşınması və selik axıntısı müşahidə edilir.

***– Doktor, ümumiyyətlə, allergiya nədir?***



– Allergiya immun sisteminin yaratdığı bir reaksiyadır. İmmun sistemi orqanizmə daxil olan bütün yad cisimlərə qarşı cavab verir. Normal şərtlər daxilində bu qoruyucu reaksiyadır. Bununla yanaşı, bəzi insanlarda bir sıra maddələrə qarşı fərqli immun cavab yaranır və bu maddələrlə təkrar qarşılaşdıqda daha yüksək reaksiyalar müşahidə edilir. Bu maddələr allergenlər, bu tip insanlar isə "allergik" adlandırılır. Allergiya genetik olaraq keçir və əgər hər iki valideyn allergikdirsə uşaqlarında allergiyaya rastgəlmə tezliyi 50 faizə bərabərdir.

Allergenlər orqanizmdə anticisim əmələ gəlməsinə təkan verir. Bu anticisimlər allergenlərlə birləşib bəzi kimyəvi maddələrin – histaminin ifraz olunmasına səbəb olur. Bu maddə isə burun balıqqulaqlarının ödeminə, qaşınmaya, bol selik ifrazına və qıcıqlanmaya səbəb olur.

***– Xəstəlik hansı əlamətlərlə müşahidə olunur?***

– Allergik rinit ən çox rast gəlinən allergiya xəstəliyidir. Rastgəlmə tezliyi 20 faizdir. Hər il bir çox insan allergik rinitlə qarşılaşır. Bu, bəzi insanlarda yüngül, bəzilərində isə çox ağır əlamətlərlə özünü göstərir.

Allergiyanın əas əlamətləri burun axıntısı, asqırma, burunda qaşınma, burun tıxanıqlığı, iybilmənin zəifləməsi, gözlərdə yaşarma və yorğunluqdur. Qavrama çətinliyi və yuxu pozğunluğu yaranır ki, bu da normal həyat keyfiyyətini pozur. Bu xəstəliyə bütün yaşlarda rast gəlinir. Lakin, əsasən, 1–20 yaş arasında başlayır. Əksəriyyətində ailədə eyni və ya oxşar xəstəliklər mövcud olur.

***– Reaksiyalar eyni olur, yoxsa orqanizmin fərdi xüsusiyyəti ilə bağlıdır?***

– Allergik reaksiyalar müxtəlifdir. Mövsümlə əlaqəli allergik rinit ağac, çayır və yabanı ot tozcuqlarına qarşı yaranır. Xəstənin şikayətləri bu allergenlərin atmosferdə çox olduğu vaxtlarda özünü göstərir. Xəstəliyin il ərzində davam etmə müddəti coğrafi bölgə və iqlim ilə yaxından əlaqəlidir. Çiçəklərin tozlanma mövsümü xaricində xəstələr, ümumilikdə, rahat olurlar. Yazın ilk ayında ağac, 1 ay sonra çayır, payıza qədər isə yabanı ot tozcuqları bu şikayətlərə səbəb olur.

Allergik rinitə səbəb olan allergenlər ev tozu, hamam böcəkləri, ev heyvanları – pişik və itdir. Bunların arasında isə ən çox allergiya yaradan ev tozudur. Xəstənin yaşadığı yerdə daim toz allergenlərinə məruz qalması şikayətlərin il boyu davam etməsinə səbəb olur. Digər ev allergenləri isə ev heyvanlarıdır. Xüsusilə pişik allergenləridir ki, onlar yayıldığı yerdə aylarca qalır. Allergenlər yalnız evdə deyil, məktəb, iş yeri, avtobuslarda da yüksək miqdarda təsbit edilir.

Peşəyə bağlı allergik rinit iş yerlərindəki qıcıqlandırıcı maddələrə bağlıdır. Asqırma, burun axıntısı və burun tıxanıqlığı kimi əlamətlər iş yerlərində yaranır. Xəstələr həftə sonları və istirahət günlərində rahat olurlar. Allergik rinit olan xəstələrin 30–40 faizində bronx həssaslığı və allergik astma, daha az sıxlıqda digər allergik xəstəliklər müşahidə olunur.

***– Allergiyanı təyin etmək üçün hansı müayinə üsullarından istifadə edilir?***

– Xəstəyə diaqnoz anamnez toplamaq, fiziki müayinə əlamətləri ilə yanaşı, dəri allergiya testi və burun yaxmasının yoxlanması ilə qoyulur. Diaqnoz üçün ən çox istifadə olunan dəri testidir. Yalnız xəstənin dəri testində olmayan bir allergenə allergiyası varsa, bu test o qədər də faydalı olmur, nəticə neqativ çıxır. Həmçinin bəzi allergenlər dəridə reaksiya verməsələr də, tənəffüs yollarında reaksiyaya səbəb olur. Bundan başqa, qanda İgE göstəricisi yoxlanır.

***– Xəstəliyin müalicəsi necə aparılır?***

– Diaqnoza uyğun müalicəyə başlanır. 1-ci üsul allergenlərlə təması aradan qaldırmaqdır. Allergik rinitin müalicəsində əsas məqsəd allergenlərdən qorunmaq olsa da, bu, o qədər də asan deyil. Tozcuqlardan qorunmaq üçün tozlanma çox olduğu vaxtlarda – saat 10.00-a qədər açıq havaya çıxmamaq, zəruri hallarda maskalarla çıxmaq lazımdır.

Həmin saatlarda açıq havada idman etməmək, saç tez tozlandığına görə hər axşam saçları yumaq, uşaqlar evə gələn kimi paltarlarını dəyişmək vacibdir. Maşında gedərkən pəncərələri açmamaq, tozlanma mövsümündə evdəki qapı və pəncərələri bağlı saxlamaq, evdə və ofislərdə kondisionerlərin filtrini tez-tez dəyişdirmək məsləhətdir.

İstirahət üçün dəniz kənarını seçmək, bayırda eynək və şlyapalardan istifadə etmək, eynəkləri hər gün axar su ilə yumaq, gündəlik paltarları yataq otağında dəyişməmək, allergiyaya qarşı həkim qəbuluna getmək, ev tozundan qorunmaq üçün nəmli mühitdən uzaq olmaq, yataq otağından toz tutan xalçaları götürmək, allergenləri keçirməyən yataq, yorğan, yastıqlardan istifadə etmək lazımdır.

Allergenlərlə təması aradan qaldırdıqdan sonra 2-ci üsul – dərman müalicəsi başlanır. Qulaq–burun–boğaz həkiminin müayinəsi nəticəsində allergiyanın infeksiya və ya hər hansı anatomik pozğunluğa səbəb olub-olmadığı müəyyən olunur və ona uyğun müalicə verilir. Allergiyanın müalicəsində xəstəyə antihistaminlər, dekonjestanlar, xromalin və kortizonlu dərmanlar təyin edilir. Bu dərmanlar tək və ya kombinə şəkildə həkim məsləhətinə görə istifadə olunur.

3-cü üsul peyvənd müalicəsidir. Bu, allergiyadan qorunmağın mümkün olmadığı və ya dərman müalicəsinin fayda vermədiyi hallarda, allergenin az dozadan başlayaraq, artan şəkildə şprislə dəri altına yeridilməsi üsulu ilə aparılan immunoterapiyadır. Bu zaman orqanizm bu maddəni tanıyaraq allergik reaksiya göstərməməyə proqramlanır. Peyvənd həftədə bir dəfə olmaqla, 3–5 il ərzində aparılır. Son illərdə allergenin ağızdan (dilaltı) və ya burundan verilməsi ilə yaxşı nəticələr əldə edilir. Yaşı 5-dən az olan uşaqlara, immun sistemi zəif, xərçəng xəstəliyi, ağır psixoloji problemləri olanlara, müalicəyə düzgün davam edə bilməyən xəstələrə peyvənd aparılması uyğun görülmür.

İmmunoterapiya mütəxəssis nəzarəti altında aparılmalıdır. Xəstə hər peyvənddən sonra 30 dəqiqə gözləməli, reaksiya yaranıb-yaranmamasına nəzarət olunmalıdır. Peyvənddən sonra hansısa əlamət hiss edilərsə həkimə deyilməlidir. 4-cü üsul cərrahi müalicədir. Burun əti konxa (balıqqulağı) allergik şikayəti olan xəstələrdə böyüyür və müşahidə olunan burun tıxanıqlığını daha da artırır.

Bundan əlavə, allergiya burun içində poliplər də yaradır. Poliplər də mövcüd burun tıxanıqlığını artırır. Bu zaman cərrah müdaxiləsi dərman müalicəsindən daha faydalı olur. Əsas məqsəd burun tıxanıqlığını götürməkdir. Allergiyanın digər əlamətləri də əməliyyatdan sonra azala bilər.

Fototerapiya – allergiyanın müalicəsində istifadə olunan ən yeni üsuldur. Bir neçə dəqiqəlik seanslarla istifadə olunan işıq müalicəsi ağrısızdır. Bir, ya da iki müalicədən sonra təsirini göstərir. Həm mövsümi, həm də ilboyu allergik şikayətləri davam edən xəstələrdə işıq müalicəsi ilə burunda allergiya nəticəsində yaranan qaşıntı, axıntı, tıxanma, asqırma azalır və ya tamamilə yox olur.

*Müsahibəni qələmə aldı:*
***Zərifə BƏŞİRQIZI***
***XQ***

Yaqub Məmmədov –95

**Martın 14-ü, axşam saatlarıdır. Muğamsevərlər Beynəlxalq Muğam Mərkəzinə (BMM) toplaşıblar. Foyedə xeyli adam var. Tanış üzlər, dostlar da çoxdur. Bir neçə dəqiqədən sonra burada "BMM-in "Unudulmayanlar" layihəsi çərçivəsində böyük müğənni, Xalq artisti Yaqub Məmmədovun anadan olmasının 95-ci ildönümünə həsr olunan xatirə gecəsi başlayır.**

Gecənin aparıcısı, tanınmış yazıçı-publisist, musiqişünas, Əməkdar incəsənət xadimi Mustafa Çəmənlinin ilk sözü bu oldu ki, ustad sənətkar Yaqub Məmmədov xalqımızın muğam ifaçılığı sənətində dərin iz qoymuşdur. O, muğam korifeylərimiz Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimovun ən istedadlı davamçılarından sayılır. Muğamsevərlərin ölməz Yaqub sənətinə rəğbət və məhəbbətləri sonsuzdur. O, qəlbləri ovsunlayan məlahətli səsi ilə bir-birindən gözəl sənət inciləri yaradıb.

# Azərbaycan muğamının "zəngulələr şəlaləsi"

## *"Mənsuriyyə" Yaqub Məmmədovun xanəndəlik zirvəsidir*



Mustafa müəllimi, yalan olmasın, bəlkə 50 ildən çoxdur ki, tanıyıram. Tələbə yoldaşımızdır. Bəlkə onlarla, yüzlərlə belə tədbirlər aparıb. Amma həmin gecə çox həyəcanlı idi. Səbəbini yaxşı bilirəm. Axı Yaqub Məmmədov sənətinin fanatıdır. İnsafən, son illər böyük müğənni haqqında yazılan ən yaxşı kitablardan birinin müəllifidir. Sənətkar haqqında danışmağa, deməyə ürəyində sözü çoxdur. Amma haradan başlayıb harada qurtarsın. Ürəyi o qədər doludur ki...

Mustafa Çəmənli sonra söylədi ki, o, şəxsən ekranlardan tez-tez eşitdiyi "Oxuyur Yaqub Məmmədov" anonsu ilə razılaşa bilmir. Axı, Yaqub Məmmədov sadəcə oxumurdu, o, hər dəfə öz ecazkar ifası ilə yeni, daha bitkin bir sənət əsəri yaradırdı. Onun ifasında bütün muğam dəstgahları gözəldir, gəlin etiraf edək ki, Yaqubun "Mənsuriyyə"si sadəcə möhtəşəmdir.

Zal bu sözlərə gurultulu alqışlarla cavab verir. Mustafa müəllim sözünün davamında deyir ki, Yaqub Məmmədovun səs imkanrı çox geniş olub. O, eyni səsi, eyni avazı təkrar etməzdi. Yaqubun səsi ilahi səs idi, bu səs xalqın ruhuna olduqca yaxın, doğma idi. Bu səs bulaq suyu qədər saf, təmiz idi. Musiqimizin Xanı var, Seyidi var, Yaqub Məmmədovu isə cəsarətlə Azərbaycan muğamının Sultanı adlandırmaq olar".

Aparıcının bu sözlərindən sonra zal yenidən alqışlara qərq olur. Sonra söz Yaqub Məmmədovu yaxından tanıyan, onunla birlikdə illər boyu toylarda, el şənliklərində, hökumət tədbirlərində iştirak edən sənət adamlarına verilir.

Əvvəlcə tanınmış tarzən. Xalq artisti Vamiq Məmmədəliyev çıxış edərək Yaqub Mədovun Azərbaycanın hər yerində, xüsusilə də Abşeron kəndlərində çox sevildiyini söyləyir. Vamiq müəllimin sözlərinə görə, Yaqubun bu qədər çox sevilməsinin səbəbi təkcə gözəl səsə malik olan böyük sənətkar olması deyildi, Yaqub həm də son dərəcə sadə, səmimi, necə deyərlər saya insan idi. Çox əxlaqlı, mənəviyyatlı insan idi, onu tanıyanların qəlbində ən yaxşı insani cəhətləri ilə qalıbdır. Belə xoşbəxtlik hər kişiyə, hər sənətkara nəsib olmur.

***Vamiq müəllimin ürəyi dolu idi:***

– Yaqub Məmmədov vara-pula yıxılan adam deyildi, çox gözütox, yumşaq adam idi. Onunla neçə il meydanlarda oldum, amma bir dəfə də olsun ondan "mən" sözünü eşitmədim. Bəzən elə olurdu ki, kasıb insanlar Yaqubu toya aparmaq istəyirdilər, amma imkanları o qədər də çox olmurdu. Yaqub bunu biləndə mənə deyirdi ki, nə danışırsan, millətin hamısı bizimdir, gedək o toya. Və ən qəribəsi də odur ki, həmin kasıb toyu, varlı toyundan da yaxşı keçirdi.

Vamiq müəllim çıxışının sonunda qeyd etdi ki, onun rəhmətlik qardaşı, görkəmli şərqşünas alim, akademik Vasif Məmmədəliyev də Yaqub müəllimin ecazkar səsinin heyranlarından idi və bu böyük sənətkarı dinləməkdən sonsuz zövq alardı. Vasif müəllim müğənnidən məclisdə ayrıca bir muğamı, yaxud təsnifi oxumağı xahiş etməzmiş, deyərmiş ki, Yaqub müəllim, ürəyin nə istəyir, onu da oxu, çünki sənin ifalarının hər biri möhtəşəmdir.

Sonra səhnəyə digər Xalq artisti, professor, tanınmış kamança ustası Arif Əsədullayev çıxdı. O, vaxtilə, 30-40 il əvvəl Yaqub Məmmədovla birlikdə uzaq Kubada olarkən, onun oradakı okean sahillərindəki bir istirahət məkanında "Qarabağ" şikəstəsini böyük bir şövq və həvəslə oxuduğu, eləcə də onlarla bir yerdə "Azadlıq Adası"na səyahət edən Xalq şairi Nəriman Həsənzadənin bu ifadan təsirlənərək elə oradaca Yaquba gözəl bir şeir həsr etdiyi barədə söz açdı.

Tanınmış yazıçı Seyran Səxavət isə böyük müğənni, yaxın dostu Yaqub Məmmədovla bağlı xatirələrindən danışarkən sənətkarın son dərəcə sadə, bir insan olduğunu xüsusi vurğuladı: "Bu boyda parlaq istedad sahibi həyatda son dərəcə sadə və iddiasız idi, özünü öyməzdi, özündən əvvəlki böyük sənətkarlar haqqında hər dəfə höyük hörmət və ehtiramla söz açardı. Sözün qısası, Yaqubdan yoxdur və olmayıb!"

Hörmətli oxucu! Yaqub Məmmədova həsr olunmuş gecədə, əlbəttə, tar, kaman, qaval dil açıb danışmaya bilməzdi. Təşkilatçılara minnətdarlıq hissi ilə bildirməyi özümə borc bilirəm ki, həmin axşam burada çox sayda tanınmış xanəndələrin iştirakı ilə muğam və təsniflərdən ibarət konsert proqramı təqdim olundu.

Əməkdar artistlər Təyyar Bayramov, İlkin Əhmədov, Sevinc Sarıyeva, 4-cü və 7-ci Muğam müsabiqələrinin qalibləri Xətai Hacıyev və Murad Laçın və digərləri muğam və təsniflərimzi elə şövqlə ifa etdilər ki, zalda onları böyük sayğı ilə dinləyən tamaşaçıların hər birinin qəlbində "afərin!" nidaları səslənirdi. Bunu duymamaq, hiss etməmək qeyri-mümkün idi! Bu, əsl sənət bayramı idi!

Mərasimdə tanınmış şair Rafail Tağızadə yan-yana oturmuşduq. "Facebook" yoldaşıyıq, həyatda isə ilk dəfədir ki, görüşürdük. Gecə başa çatanda Rafail müəllim öz ürək sözlərini açıqlayaraq dedi:

***– Son dərəcə böyük zövq aldım. Yaqub Məmmədov sənətinə və şəxsiyyətinə layiq bir gecə idi. Bu layihənin adını da çox düz qoyublar – unudulmazlar! Həqiqətən, heç vaxt unudulmayacaq sənətkarlardandır. Bütün əməyi keçənlər sağ olsunlar!***

***Məsaim ABDULLAYEV***
***XQ***

# "Sabahın alimləri" müsabiqəsinin qalibləri

**Elm və Təhsil Nazirliyi, Heydər Əliyev Mərkəzi, Təhsil İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı və tərəfdaşlığı ilə keçirilən "Sabahın alimləri" XIV Respublika layihə müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib. Dövlət Himninin səsləndirilməsindən sonra müsabiqə çərçivəsində hazırlanan videoçarx nümayiş olunub.**






Elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, müasir elmdə uğur qazanmaq üçün təkcə bilik kifayət etmir, eyni zamanda, müxtəlif bacarıqlara və istedada sahib olmaq vacibdir. Bu məqsədlə Elm və Təhsil Nazirliyi intellektual oyunlar, fənn olimpiadaları, "Sabahın alimləri" müsabiqəsi və STEAM layihəsi təşkil edir. Firudin Qurbanov əlavə edib ki, bu gün dinamizm, sosial və elmi-texniki inkişafın uğuru yalnız yaradıcılıq fəaliyyətinin səmərəliliyindən asılıdır.

Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev son illər ölkəmizdə gənclərin hərtərəfli biliklərə yiyələnməsi, onların elmi potensialının üzə çıxarılması istiqamətində həyata keçirilmiş layihələrdən danışıb.

Mərasimdə 1, 2 və 3-cü yerlərin qaliblərinə diplom və medallar, fərqlənən şagirdlərə xüsusi mükafatlar, iştirakçıların hər birinə isə sertifikatlar təqdim olunub.

Elm və Təhsil Nazirliyinin məlumatında bildirilib ki, müsabiqənin keçirilməsində məqsəd elmi-tədqiqat və yaradıcılıq potensialı olan istedadlı şagirdləri aşkara çıxarmaq, onlarda tənqidi düşünmə, problem həlletmə, vaxtın idarə olunması, natiqlik və ünsiyyət kimi bacarıqları inkişaf etdirmək, ali təhsil müəssisələri və elmi təşkilatlarla ümumi təhsil müəssisələri arasında əlaqələri genişləndirmək, həmçinin şagirdlərin oxşar maraqları olan həmyaşıdları ilə şəbəkələşməsini təmin etməkdir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 58 (30752) 16 mart 2025-ci il, bazar

İdman

## 3 boksçumuz finalda




**Macarıstanın Debretsen şəhərində keçirilən boks üzrə beynəlxalq turnirdə 3 boksçumuz finala yüksəlib.**

Həlledici mərhələdə komandamızın hər üç üzvü Macarıstan təmsilçiləri ilə mübarizə aparacaqlar. Belə ki, Tural Sarıyev (50 kq) Atilla Bernat, Məhəmmədəli Qasımzadə (60 kq) Kruzito Kovaçs, Əli Abdullayev (65 kq) isə Milan Petrimanla qüvvələrini sınayacaqlar.

## Şahmatçılarımız Avropa çempionatında




**Rumıniyanın Eforie Nord şəhərində kişilər arasında şahmat üzrə Avropa çempionatı başlayıb.**

Yarışda Azərbaycanın 13 şahmatçısı – Aydın Süleymanlı, Nicat Abasov, Məhəmməd Muradlı, Read Səmədov, Əhməd Əhmədzadə, Misrətdin İsgəndərov, Vüqar Manafov, Şiroğlan Talıbov, Xaqan Əhməd, Elmar Atakişiyev, Şahin Vəliyev, Suleyman Süleymanlı və Ümid Aslanov çıxış edir.

Avropa çempionatında Dünya kubokuna 20 vəsiqə veriləcək. Turnirə 40 ölkədən, ümumilikdə, 376 şahmatçı qatılıb.

## U-21 millilərinin məşqçiləri yenilənir

**Azərbaycanın aşağı yaş qrupları üzrə milli komandalara yeni baş məşqçilər təyin olunub.**

Azərbaycanın U-21 yığması Ayxan Abbasova tapşırılıb. O, bu postda Samir Əliyevi əvəzləyib. Mütəxəssislə müqavilənin müddəti 2 illik nəzərdə tutulub.



Elxan Abdullayev U-19, İlham Yadullayev U-18 (2008-ci il təvəllüd), Aqil Nəbiyev isə U-17 (2009-cu il təvəllüd) yığmalarının sükanı arxasına keçiblər. Onların hər biri ilə 2025-ci ilin sonuna kimi müqavilə imzalanıb.

*L.AZAD*
*XQ*

# Güləş millimiz Avropa qalibi oldu

## *Gənc pəhləvanlarımız bu uğuru 4-cü dəfə təzələdilər*

**Albaniyada 23 yaşadək güləşçilərin Avropa çempionatını Azərbaycan böyük uğurla başa vurdu. Yığmamızın ümumi komanda hesabında birinci yeri tutması qürurverici nəticədir.**




İlk dəfə 2022-ci ildə U23 Avropa çempionatında titula sahib çıxan sərbəst güləşçilərimiz artıq 4 ildir ki, baş mükafatı özündə saxlayır. Rekord göstəricilərlə əlamətdar olan budəfəki yarışda millimiz həm topladığı xala, həm medalların, həm də finalların sayına görə öz rekordunu yeniləyib. Ötən saylarımızda sərbəst və qadın güləşçilərin qitə çempionatında qazandıqları uğurlardan yazmışdıq.

Avropa çempionatları tarixində ilk dəfə qadın güləşi üzrə 2 dəfə çempionluq sevinci yaşadıq. Əsas hədəf bu qızların Olimpiya Oyunlarında ölkəmizi yüksək səviyyədə təmsil etmələridir. Məşqçi və mütəxəssislər də komandamızın gələcəyinin çox parlaq olduğunu bildirirlər.

Məsələn, qızıl medal qazanan qızlardan biri – Günay Qurbanovanın cəmi 17 yaşı var. Hələ 20 yaşadək güləşçilər arasında Avropa və dünya çempionatlarında iştirak etməyib. 3 il bu yaş qrupunda, 6 il isə 23 yaşadək güləşçilərin yarışında iştirak etmək şansı var.

Daha bir qızıl medalçımız Elnurə Məmmədova da gəncdir. Buna qədər 2 dəfə U23 Avropa çempionatında finalına yüksəlsə də, qızıl medal qazana bilməmişdi. İnanırıq ki, növbəti Olimpiya Oyunlarında azərbaycanlı qızlarımızı da fəxri kürsüdə görə biləcəyik.

Qitə çempionatının son günlərində yunan-Roma güləşçilərimiz mübarizə apardılar. Komandamızın üzvlərindən ən yüksək nəticəni Ruslan Nurullayev (72 kq) qazanıb. Finalda rusiyalı Danil Qriqoryevi məğlub edən idmançımız 4-cü qızıl medalı komandamızın aktivinə yazdırıb. Komandamızın digər üzvləri Ziya Babaşov (63 kq) gümüş, Xasay Həsənli (77 kq), Elmir Əliyev (55 kq) bürünc medal qazanıblar.

**Qəzetimizə açıqlama verən Azərbaycan pəhləvanı Ruslan Nurullayev Tiranaya qızıl medal üçün yollandığını dedi:**

– Əslində, hamımız Avropa çempionatına yüksək nəticə üçün getmişdik. Budəfəki qitə çempionatında qızıl medalı hədəfləmişdim. Finalda rusiyalı idmançı ilə qarşılaşmam prinsipial xarakter daşıyırdı. Rəqibim özü də mənə ötən il analoji yarışda 2-ci görüşdə məğlub etdiyim dostunun, son



dünya çempionu olan rusiyalı güləşçinin qisasını alacağını demişdi. Görüş çətin keçsə də, sonda qələbə qazandım. Qalib olmaq hissini sözlə ifadə etmək çətindir. Amma arxayınlaşmaq da olmaz. Daha yüksək nəticələr üçün mübarizə aparmalıyıq.

**Ruslanın ən böyük arzusu Olimpiya çempionu olmaqdır:**

– Hər bir güləşçi kimi mənim də arzum idmanın yüksək zirvəsini fəth etmək, Olimpiya çempionu olmaqdır. Gələcəkdə Olimpiya çəkisində çıxış etmək və qələbənin davamını gətirmək istəyirəm.

**Məşqçi Elvin Mürsəliyev "Xalq qəzeti"nə açıqlamasında millinin Tiranaya favorit kimi yollandığını dedi:**

– Qitə çempionatında çox güclü, həm də favorit komanda ilə çıxış edirdik. Heyətdə də böyük potensiala malik pəhləvanlar yer almışdılar. Yarışa



yüksək səviyyədə hazırlaşmışdıq. Bəzi güləşçilərimiz bacarıqlarından maksimum istifadə edə bilmədilər. Elmir Əliyevdən qızıl medal gözləyirdik. O, 3-cü yeri tutdu. Son Avropa çempionatının qalibi Ziya Babaşovun finalda arxayınçılığı, rəqibi düzgün qiymətləndirməməsi, qarşılaşmaya qeyri-ciddi yanaşması onu qızıl medaldan məhrum etdi. Qızıl medal sahibi Ruslanın rəqibi finalda rusiyalı idmançı idi.

Son illər müəyyən siyasi məsələlərə görə, rusiyalı güləşçilər mütəmadi olaraq, yarışlara qatıla bilmirlər. İştirak etdikləri turnirlərin hər birini özləri üçün qiymətli şans hesab edir və mükafatı əldən buraxmamaq üçün bütün gücləri ortaya qoyurlar.

Ruslan özü də finalın çətin olacağını bilirdi. Çox sağ olsun, məşqçilərini eşitdi, tapşırıqları dəqiqliklə yerinə yetirdi. Gücündən maksimum istifadə edərək qalib adını qazandı. Gələcək üçün perspektivlər böyükdür. Hazırkı komandamız güclüdür. Güləşçilərimizin daha yüksək nəticələr əldə etmələri üçün səylərimizi artıracağıq.

Qeyd edək ki, Azərbaycan 4 qızıl, 5 gümüş, 7 bürünc medalla ümumi komanda hesabında bütün ölkələri qabaqlayaraq 169 xalla 1-ci yeri tutub. Gənc pəhləvanlarımız bu uğuru 4-cü dəfə təzələdilər. Millimiz 2022-ci ildən başlayaraq, 4-cü dəfə qitə çempionluğunu bayram etdilər. Şübhə etmirik ki, güləş millimiz növbəti yarışlarda da böyük nailiyyətlər əldə edəcək. Bunun üçün yüksək potensial və bacarıqlarla yanaşı, güclü istək də var. Əminik ki, Azərbaycan pəhləvanlarının sorağı daha uca zirvələrdən gələcək.

*Leyla QURBANOVA*
*XQ*

SAĞLAMLIQ

# Təbiətin loğmanı – təzyiqin dərmanı

**Qan təzyiqini aşağı sala bilən bəzi qidalar qan damarlarını təbii şəkildə genişləndirməyə, sidikqovucu təsir göstərməyə və ya natrium balansını tənzimləməyə kömək edə bilər. Kardioloqlar qan təzyiqini ən tez aşağı salan 10 qidanı təqdim edir:**

**Sarımsaq** – qan damarlarını genişləndirərək qan axını artırır.

**Banan** – tərkibindəki yüksək kalium ilə artıq natriumu tarazlaşdırıb qan təzyiqini aşağı salmağa kömək edir.

**Qatıq** – kalsiumla zəngin olduğu üçün damarları rahatladır.

**Çuğundur** – tərkibində nitrat olduğu üçün qan damarlarını genişləndirir, suyunu içmək qan təzyiqini tez aşağı salır.

**Limonlu su** – bədəni qələviləşdirir və damarları rahatlaşdıraraq qan təzyiqini tarazlaşdırır. Səhər acqarına içildikdə daha təsirli ola bilər.

**Nar** – antioksidantlarla zəngindir və şirəsi müntəzəm içildikdə qan təzyiqini aşağı salır.

**İspanaq** – tərkibindəki maqnezium və kalium-la damar sağlamlığını dəstəkləyir. Qan təzyiqini tənzimləyir.

**Zeytun yağı** – sağlam yağlar qan təzyiqini aşağı salmağa kömək edir.



**Kərəviz** – təbii bir sidikqovucudur və bədəndən artıq natriumu çıxarır. Qan təzyiqini aşağı salmaqda faydalı ola bilər.

**Darçın** – qan dövranını sürətləndirir və təbii olaraq təzyiqi aşağı salır. Çayda və ya yeməkdə istifadə edilir.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

# İlıq və dumanlı bazar günü

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12° isti, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 761 mm civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 8-12° isti, gündüz 25-30° isti, dağlarda gecə 3-8° isti, gündüz 20-25° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



TİBBİ AKSİYA

# "Erkən müayinə can qurtarır"

**Səhiyyə Nazirliyi və "PAŞA Holding"in birgə təşkilatçılığı ilə "Erkən müayinə can qurtarır" adlı növbəti aksiya Sabirabad rayonunda reallaşıb. Diabet xəstəliyinin erkən müayinəsi üçün təşkil olunan aksiyada Sabirabad və ətraf rayon sakinləri fəal iştirak ediblər.**

"Fərqindəlik" layihəsinin rəhbəri Şəbnəm Həsənova bildirib ki, "Erkən müayinə can qurtarır" adlı tibbi müayinə ikinci dəfədir keçirilir və bu dəfə Sabirabadda təşkil olunub. Kampaniya ölkə üzrə 24 rayonu əhatə edəcək, o cümlədən işğaldan azad edilən rayonlarda da təşkil olunacaq. Şəbnəm xanımın sözlərinə görə, erkən müayinə diabetin həm fiziki, həm də sosial təsirlərini azaltmağa kömək edir. Belə ki, diabetin nəzarət altında saxlanması ilə xəstələr gündəlik həyatlarında daha aktiv və sağlam ola bilərlər.

Məqsəd diabetin qarşısını almaq, insanları sağlamlıqları ilə bağlı məlumatlandırmaq və sağlam cəmiyyət qurmaqdır.

*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

"Xalq qəzeti"nin kollektivi Əməkdar jurnalist Cavid Xaspoladova anası

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3373
SİFARİŞ 539
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00